

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 22 (24.404)

8 iyun 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Dünyanın gözü yenidən Azərbaycanda:

## Prezident İlham ƏLİYEV:

“ *Enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub.* ”



## Bakı ənənəvi enerji seqmentlərini “yaşıl gələcək”lə qovuşdurur

İyunun 4-də Bakıda dünyanın enerji siyasətinin gələcək perspektivlərinin müzakirə olunduğu Bakı Enerji Həftəsi öz işinə başlayıb. İlk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilən və hər il təşkil olunan bu beynəlxalq platforma həm də özündə üç mötəbər tədbiri birləşdirir. Bunlar 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil&Gas”, 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi “Caspian Power” və 29-cu Bakı Enerji Forumudur.

Ötən illərin təcrübəsi onu göstərir ki, Bakı Enerji Həftəsinə dünyada böyük maraq var. Çünki bu tədbir dünyanın enerji sənayesi liderlərini, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçılarını, eyni zamanda bir çox ölkələrin energetika, sənaye və ticarət üzrə nazirlərini və digər yüksək rütbəli qonaqları bir araya gətirir. Reqlamentə görə, Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edir. Tədbirdə Azərbaycanla yanaşı, ABŞ, Almaniya, Avstraliya, Avstriya, Belarus, Belçika, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, Əlcəzair, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İraq, İsrail, İsveç, İtaliya, Latviya, Qazaxıstan, Qətər, Macarıstan, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Sloveniya, Türkiyə, Ukrayna və Yaponiya iştirak edir. Bu ölkələr arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfə tədbirə qatılırlar. Həmçinin builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın “yaşıl enerji” sahəsinə yüksək maraqgöstərən xarici iştirakçılardır.

Digər tərəfdən, budəfəki tədbir bir sıra əhəmiyyətli hadisələrlə əlamətdardır. Belə ki, bu il Azərbaycanın müasir neft strategiyasının əsasını qoymuş “Əsrin müqaviləsi”nin imzalanmasının 30 ili tamam olur. Eyni zamanda Beynəlxalq Xəzər Neft və Qaz “Caspian Oil&Gas” sərgisinin təsis edilməsindən 30 il ötür. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin hərtərəfli dəstəyi ilə 1994-cü ildən başlayaraq Azərbaycanın neft-qaz sənayesində ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi bu gün artıq dünyanın neft, qaz və energetika sahəsində aparıcı şirkətlərinin nümayəndələrinin görüş yerinə çevrilib. Sərginin müasir və gələcək dövr üçün daha böyük əhəmiyyəti ondadır ki, burada “yaşıl enerji”nin gələcək istiqamətləri üzrə konseptlər də müzakirə olunur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin təşkilinin də bu il Azərbaycana həvalə edilməsini nəzərə alsaq, Bakı Enerji Həftəsinin dünyanın diqqət mərkəzində olduğunu əminliklə demək mümkündür. Bunu da nəzərə alaq ki, 2024-cü il həm də Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Bu əlamətdar hadisə də Bakı Enerji Həftəsinin tədbirlər proqramında öz əksini tapır.

Vurğulamaq lazımdır ki, beynəlxalq səviyyəli işgüzar tədbirlərin keçirilməsində böyük təcrübəyə malik Azərbaycan builki tədbirin imkanlarından yararlanaraq əlverişli platforma əldə edir. Çünki bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi və istehsalı, enerji nəqliyyatı, eləcə də digər əhəmiyyətli məsələləri müzakirə etmək, enerji sahəsində yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsində əhəmiyyətli rola malikdir. Buradakı sərgi çərçivəsində neft və qaz yataqlarının hasilatı, emalı, telekommunikasiya və İT, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar, enerji sənayesində süni intellektin tətbiqi və digər bu kimi mövzuların müzakirəsi, buradan alınan ortaq nəticələr bütün dünya ölkələrini maraqlandıran məsələlərdir. Təsadüfi deyil ki, tədbirin əhəmiyyəti açılış mərasimində ABŞ Prezidentinin oxunan məktubunun mətnindən də aydın sezilirdi: “Bu, Azərbaycan üçün unikal imkan yaradır. Azərbaycan Avropada qlobal enerji təhlükəsizliyində sütun rollarından birini oynayır. Azərbaycanın təmiz enerjiyə artan diqqətinə görə minnətdarlığımı bildirmək istəyirəm. Xəzərin potensialı Azərbaycanın gələcəkdə təmiz enerji sahəsində istehsalını ənənəvi enerji istehsalını üstələməyə gətirib çıxara bilər”.

Vurğulamaq lazımdır ki, bu tədbir dünyada nadir enerji toplantılarından biridir ki, ABŞ Prezidenti buna görə məktub göndərir. Digər tərəfdən, süpergüc rəhbərinin həftə ərzində Azərbaycana ikinci dəfə məktub göndərməsi Vaşinqton-Bakı əlaqələrinin hazırkı vəziyyətinin göstəricisi sayıla bilər. Yəni artıq ABŞ də dünya ölkələrinin enerji təhlükəsizliyinin artırılmasında Azərbaycanın rolunu, tutduğu geosiyasi mövqeni qəbul edir. ABŞ Prezidentinin “Azərbaycan Avropada qlobal enerji təhlükəsizliyində sütun rollarından birini oynayır” fikri bunu bir daha təsdiq edir.

Bakı Enerji Həftəsində Azərbaycan Prezidentinin çıxışı da kifayət qədər dərinməzmunlu, gələcəyə yönəlik və qlobal əhəmiyyətli idi. Dövlət başçısı bildirdi ki, Azərbaycan ötən 30 ildə böyük çətinliklərdən keçərək mühüm enerji layihələrini icra edib, indi isə Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verir. Həmçinin ənənəvi enerji layihələri ilə bərabər, “yaşıl enerji” layihələrinə də böyük diqqət göstərir. Tədbir çərçivəsində Energetika Nazirliyi və “Azərenerji” ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala Günəş Elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ Külək Elektrik Stansiyası layihələri üzrə müqavilələr imzalandı. Prezident çıxışında xüsusi vurğuladı ki, “Masdar” şirkəti artıq Azərbaycanda 230 meqavat gücündə Günəş Elektrik Stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir. Dövlət başçısı hədəfin 2027-ci ilədək 2 qiqavat həcmində bərpa olunan enerjinin əldə edilməsi olduğunu bildirdi və bunu da əlavə etdi ki, bu, sadəcə, başlanğıcdır.

Kifayət qədər ambisiyalı fikirlərdir, amma reallıqdır. Çünki bu tədbirdəki iştirakçı şirkətlər, daha doğrusu, uzun illərdir, bizimlə işləyən nəhəng enerji korporasiyaları Azərbaycanın öz layihələrində nə qədər qərarlı, ən önəmlisi isə necə etibarlı tərəfdaş olduğunu gözəl bilir. Əks halda, hazırda Azərbaycandan təbii qaz alan 8 ölkədən 6-sı (həm də Avropa ölkələri) obrazlı dildə desək, öz enerji taleyini Azərbaycanla bağlamazdı.

Azərbaycan Prezidentinin çıxışında toxunduğu ən önəmli məsələlərdən biri də ölkəmizin beynəlxalq iqlim məsələlərinə baxışı idi. Sitat: ***“…Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir”.***

Dövlət başçısı çıxışında COP29-a ev sahibliyi etməklə Azərbaycanın qlobal iqlim problemləri ilə çağırışlarına yeni yanaşma ortaya qoyduğu və beynəlxalq məsuliyyətin hər kəs tərəfindən bölüşdürülməsinin vacib olduğunun altını cızdı. Bu istiqamətdə bir-birini günahlandırmağı dayandırmağın, iddialardan əl çəkməyin vaxtının çatdığını bildirdi, övladlarımızın gələcəyi üçün planetimizin qarşılaşdığı çətinlikləri birgə dəf edə biləcəyimizin yeganə yol olduğunu diqqətə çatdırdı.

Beləliklə, bu günlərdə dünyanın diqqəti növbəti dəfə Bakıya yönəlib. Çünki Şərqlə Qərbin qovuşacağında bu gün həm də ənənəvi enerji seqmentləri “yaşıl gələcək”lə qovuşur…

✍ Səbuhi HƏSƏNOV


Siyasi əzəmətin Heydər Əliyev zirvəsi 2
Fuad Nəcəfli Nobel mükafatı laureatı Əziz Səncərlə görüşüb 3
Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib 4
Naxçıvan Dövlət Universitetində karyera sərgisi açılıb 5
Yüz ilin təhsil ocağı Kükü kənd məktəbi 8
Bahar təravətli, zəhmət ətirli yaşıl dünyamız... 11

# Siyasi əzəmətin Heydər Əliyev zirvəsi




## Ulu Öndərin arzuladığı Naxçıvan




**Ulu Öndər Heydər ƏLİYEV:**

***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.”***

Hər bir xalqın varlığı onun birliyi, bu birliyi təmin edən liderlərinin güclü idarəçilik bacarığı ilə ölçülür. Azərbaycan xalqı da xoşbəxt xalqlardandır ki, ən keşməkeşli tarixi dövrlərində onu zamanın ən ağır sınaqlarından üzüağ çıxararaq mövcudluğunu təmin edən Heydər Əliyev kimi dahi lideri olub. Dünyaşöhrətli siyasətçi öz xalqının taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini uğurla müəyyənləşdirmiş böyük şəxsiyyətdir.

Müasir Azərbaycan tarixinin 35 ildən artıq bir dövrü Ulu Öndərin adı ilə bağlıdır. Tarix baxımından qısa zaman kəsiyi olan bu dövr Azərbaycanın əsrlərə bərabər inkişaf, tərəqqi, yüksəliş salnaməsini təşkil edir. İstər sovetlər birliyində, istərsə də müstəqilliyin ilk illərindən məhz bu tarixi şəxsiyyətin rəhbərliyi altında ölkəmizin siyasi və sosial-iqtisadi inkişafının əsası qoyuldu. Azərbaycanın əvvəlcə böyük iqtisadi potensiala malik bir respublika, müstəqillik əldə etdikdən sonra isə bir dövlət kimi formalaşmasında bu dahi şəxsiyyətin əvəzolunmaz rolu vardır. Ulu Öndərimiz ölkəni tarixin burulğanlarından keçirərək özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmış, onu beynəlxalq aləmdə söz sahibi olan qüdrətli bir dövlətə çevirmişdir.

Xalqımızın xoşbəxtliyi ondadır ki, biz yalnız keçmişimizlə deyil, bu günümüzlə və gələcəyimizlə də fəxr edirik. Çünki Ulu Öndərimizin bizə əmanət etdiyi müstəqil Azərbaycan dövləti və onun böyük uzaqgörənliklə işləyib hazırladığı siyasi xətti uğurla davam etdirən Prezident cənab İlham Əliyev vardır. Qədirbilən xalqımız müdrik rəhbərimizin əziz xatirəsini daim böyük hörmətlə yad etdiyi kimi, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti də dəstəkləyir, Prezidentinin ətrafında daha da sıx birləşərək bu siyasətin reallaşmasına öz töhfəsini verir.

Hər birimiz sevinir və qürur hissi keçiririk ki, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Respublikamız böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir.




Bütün həyatını və fəaliyyətini öz xalqının xoşbəxtliyinə və doğma Vətənin qüdrətlənməsinə həsr edən Ulu Öndərimiz hələ sağlığında Ümummilli Lider adını qazanmış, milyonlarla insanın qəlbində özünə möhtəşəm abidə ucaltmışdır. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Ümummilli Liderimizin əziz xatirəsini əbədiləşdirmək üçün bir çox ünvanlara Ulu Öndərin adı verilmiş, Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində Ulu Öndərimizin heykəlləri və büstləri ucaldılmışdır. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyünə görə anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstünün qoyulması sağlığında dahi şəxsiyyətə xalq məhəbbətinin, el sevgisinin nəticəsi idi.

Babək, Şərur, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarında, həmçinin bir sıra xarici ölkələrdə ucalan heykəl və büstləri dahi şəxsiyyətin ruhuna ehtiramın, milyonlarla insanın öz rəhbərinə bəslədiyi sonsuz hisslərin təzahürüdür. ***“Mən həyatımı xalqıma səadət gətirməyə həsr etmişəm”***, – deyən dahi insan hər zaman öz titanik fəaliyyətində xalqa arxalanmış, ən çətin anında ona müraciət etmişdi. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Dahi şəxsiyyət Heydər Əliyev, sözün əsl mənasında, həyatın mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi, siyasi lider idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Ulu Öndər Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda müstəqil dövlətçilik prinsiplərinin bərqərar olması, möhkəmləndirilməsi üçün zəruri olan əsas tədbirləri həyata keçirmişdir. Bu mənada, işğaldan xilas edilmiş, böyük inkişafın əsasları yaradılmış 100 illik yubileyini qeyd etdiyimiz muxtariyyət Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil Azərbaycana ən böyük ərməğanı, əmanətidir.

Şərəfli ömür yolunu ölkəmizin inkişafına və tərəqqisinə həsr etmiş milli lider anadan olmasının 101-ci ildönümündə də böyük sevgi və ehtiramla xatırlanır. ***“Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır”***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyev təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyil, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünür.

Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində Ulu Öndər Heydər Əliyevin ölməz və işıqlı obrazı yaşayır. ***“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”***, – deyən Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ölkəmizin dövlətçilik tarixində o qədər böyük yeniliklərə, nəhəng işlərə imza atıb ki, deyilən sözlər onun cahanşümul fəaliyyətini əhatə etməkdə acizdir.

İllər ötdükcə biz Heydər Əliyev dühasının müstəqil və müasir Azərbaycanın tarixindəki əvəzsiz rolunu daha dərindən dərk edir, bu dahi şəxsiyyətin siyasi əzəməti, beynəlxalq nüfuzu barədə təkrar-təkrar düşünməyə mənəvi ehtiyac duyuruq. Çünki bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. İstər ölkəmizin tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaqdır. ***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”***, – deyən Ulu Öndər Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

Bütün ölkə vətəndaşları inanırlar ki, həyatını canından əziz bildiyi Vətəninə xidmətdə keçirmiş Heydər Əliyevin dühası işığında doğma Azərbaycanımız həmişə irəliyə və yüksəlişə doğru gedəcəkdir. Ulu Öndər Heydər Əliyevin ideyaları həmişə olduğu kimi, bu gün də yolumuza işıq saçır, bizi yeni-yeni qələbələrə səsləyir. Ümummilli Lider Heydər Əliyev xalqın qəlbində tayı-bərabəri olmayan heykəl, əsrlər boyu yaşayacaq abidə – şah əsər ucaltdı. Bu abidənin, şah əsərin adı Azərbaycandır – müstəqil və qüdrətli Azərbaycan!

**✍ Məhəbbət MİRZƏYEVA**

# Fuad Nəcəfli Nobel mükafatı laureatı Əziz Səncərlə görüşüb



İyunun 1-də dünyaşöhrətli alim, ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər Naxçıvana səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb.

Səlahiyyətli nümayəndə Əziz Səncəri qarşılayıb, dünyaşöhrətli alimi Naxçıvanda salamlamaqdan məmnunluğunu bildirib.

Qonaq əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası ilə tanış olub. Fuad Nəcəfli Ali Məclisin iclas zalında məlumat verib ki, burada Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib. Ötən il Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyip Ərdoğanın Naxçıvana səfərini xatırladan səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, dövlət başçılarımızın iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi də bu zalda keçirilib.

Sonra davam etdirilən görüşdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə məlumat verib. Xüsusilə vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilib. Müstəqil Azərbaycan Respublikasının Dövlət Bayrağı ilk dəfə Naxçıvanda qəbul edilib, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafının istiqamətləri məhz burada müəyyənləşdirilib. Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi Naxçıvan-Türkiyə münasibətlərinin qurulmasında da yeni mərhələyə təkan verib. Məhz o dövrdə Türkiyənin nümayəndə heyəti ilə danışıqlar aparılıb və əməkdaşlıq haqqında protokol imzalanıb. Həmin təməllər üzərində qurulan Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətləri hazırda dövlət başçılarımızın rəhbərliyi altında möhkəm və sarsılmaz xarakter daşıyır.

Nobel mükafatı laureatı Əziz Səncər göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkür edib, Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

## X.A.Mustafayevin Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 7-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Xanlar Aftandil oğlu Mustafayev Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 4 iyun 2024-cü il*

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli 210-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 7 nəfərdən ibarət aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri

**Kollegiyanın üzvləri**

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Naxçıvan Regional Bölməsinin rəisi

Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Babək Regional Bölməsinin rəisi

"Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 iyun 2024-cü il*

## M.M.Eminovaya "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə Eminova Mətanət Mirhəsən qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 6 iyun 2024-cü il*

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Şahbuz rayon Kükü kənd tam orta məktəbinin 100 illiyi münasibətilə **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Kərimov Zaur Yusif oğlu

Seyidova Səidə Səməd qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 iyun 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 noyabr tarixli 215-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 noyabr tarixli 215-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.0.21-ci yarımbənddə "seçilməsi barədə təkliflər vermək" sözləri "seçilməsini təmin etmək" sözləri ilə əvəz edilsin.
2. 5.5-ci bənddə "bir" sözü "iki" sözü ilə əvəz edilsin.
3. 5.6-cı bənddə "Nazir müavini ona" sözləri "Nazirin müavinləri onlara" sözləri ilə, "daşıyır" sözü "daşıyırlar" sözü ilə əvəz edilsin.
4. 5.8.6-cı yarımbənddə "müavinin və" sözləri "nazir müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə" sözləri ilə əvəz edilsin.
5. 5.9-cu bənddə "müavinindən" sözü "müavinlərindən" sözü ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 iyun 2024-cü il*

## M.Q.Rzayevin Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Malik Qadir oğlu Rzayev Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini təyin edilsin.
2. Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini Malik Qadir oğlu Rzayevə həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 may 2024-cü il*

## "Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 4 mart tarixli 447-06/S nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 4 mart tarixli 447-06/S nömrəli Sərəncamının 2-ci hissəsindən "özəlləşdirilməsi məqsədilə" sözləri çıxarılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 iyun 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən sərəncamlar imzalanıb

"Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması və fəaliyyətinin təşkili barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli Fərmanının və "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Ali Məclis sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən sərəncamlar imzalanmışdır.

Adıçəkilən sərəncamlara əsasən müvafiq qurumlar tərəfindən qeyd olunan müddət ərzində fərmanların icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ-hüquqi aktlarının və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etməli və icra vəziyyəti tələb etdikdə Nazirlər Kabinetinə məlumat verilməlidir.

*Naxçıvan Muxtar Respublikası*
*Nazirlər Kabinetinin mətbuat xidməti*

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib



İyunun 7-də Heydər Əliyev adına Hərbi Liseyin 24-cü buraxılışı münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Elşad Həsənov səlahiyyətli nümayəndəyə mərasimə hazırlıq barədə raport verib.

Səlahiyyətli nümayəndə kursantları salamlayıb.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət Himnini ifa ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi ilk illərdə tamamilə fərqli bir ölkə idi. Həmin dövrdə torpaqlarımızın 20 faizədək hissəsi erməni qəsbkarları tərəfindən işğal olunmuş, xalqımıza qarşı bir neçə dəfə soyqırımı həyata keçirilmişdi. Xocalı soyqırımının izləri bu gün də ürəyimizdə qalır və daim olaraq xalqımızın qan yaddaşında olacaq. Ölkə tamamilə iflic, iqtisadiyyatı dağılmış vəziyyətdə idi. Azərbaycanı bütün bu bəlalardan qurtarmağın vaxtı idi və bunun tək həlli yolunu, tək ümidi xalq məhz Heydər Əliyevə bağlamışdı. Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri kimi fəaliyyət göstərən Ulu Öndərimiz Heydər Əliyevə xalqın çağırışı oldu.

Səlahiyyətli nümayəndə qeyd edib ki, 1990-1993-cü illər Naxçıvan Muxtar Respublikasında da olduqca çətin günlər yaşanırdı. Muxtar respublika tamamilə izolyasiya olunmuş, onun bütün iqtisadiyyatı məhv edilmiş, ovaxtkı sovet ittifaqında bütün zəncirlər, nəqliyyat-infrastruktur yolları dağıdılmış və Naxçıvan Muxtar Respublikası, bütövlükdə, blokada vəziyyətinə salınmışdı. Dahi rəhbərin 1993-cü ildə siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra qısa bir vaxtda cəbhədə atəşkəsə nail olunmuş və quruculuq işləri başlamışdır. Məhz həmin illərdə ilk dəfə Azərbaycan beynəlxalq tərəfdaşlar taparaq “Əsrin müqaviləsi”ni imzalamağa nail olmuşdur. Bütün bunlarla bərabər, həmin dövrdə ordu quruculuğu başlamışdır. Azərbaycan Ordusunun maddi-texniki bazası genişləndirilmiş, mükəmməlləşdirilmiş, eyni zamanda zabitlərin və əsgərlərin təlim hazırlıqları inkişaf etdirilməyə başlamışdır. İlham Əliyevin dövlət başçısı seçildikdən sonra fəaliyyəti də məhz bu yöndə idi. Müzəffər Ali Baş Komandanımız dəqiq hesablamışdı və bilirdi ki, lazım gələrsə, Azərbaycan Respublikasının çıxış yolu məhz hərbi yolla Qarabağın geri qaytarılması idi. Sevindirici haldır ki, bu gün Azərbaycan vahiddir və öz ərazisində suverenliyini tam təmin edib. Müdrik xalqımızın Heydər Əliyev siyasi kursuna sadiqliyi nəticəsində bütün bunlara nail olmuşuq.

Fuad Nəcəfli kursantlara müraciətində diqqətə çatdırıb ki, biz 2020-2023-cü illərdə Qarabağda aparılan hərbi əməliyyatlar zamanı şəhidlər vermişik. Onlar da sizin kimi yüksək və gələcəyə ümid dolu arzularla təhsil almış, xalqı üçün, dövlət üçün hər zaman sadiq olacağına and içmişdilər. Şuşada Azərbaycan Respublikasının üçrəngli Dövlət Bayrağı Prezident cənab İlham Əliyev, Azərbaycan Ordusunun əsgər və zabitləri tərəfindən qaldırılıb və daim orada dalğalanacaqdır. Bu bayraq Ulu Öndərimizin, şəhidlərimizin və Ali Baş Komandanımızın hər birimizə, gələcək nəsillərə əmanətidir. Bu, gələcəyin zabitlərinin də qarşısında duran ümdə borcdur. Səlahiyyətli nümayəndə kursantların bu borcun öhdəsindən layiqincə gələcəyinə əminliyini bildirib, təhsillərində və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Elşad Həsənov çıxışında bildirib ki, hərbi liseyin məzunları müxtəlif rütbə və vəzifələrdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində igidliklə vuruşub, şanlı Qələbənin əldə olunmasına töhfələrini veriblər. Torpaqlarımızın işğaldan azad olunması uğrunda liseyin 96 məzunu şəhidlik zirvəsinə yüksəlib, 4 nəfər “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adına layiq görülüb. Liseyin adlarını şanlı zəfər tariximizə əbədi həkk etdirmiş qəhrəman və şəhid məzunlarının şanlı döyüş yolu, şücaəti kursantlar üçün əsl qəhrəmanlıq, vətənpərvərlik nümunəsidir. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Liseyin müəllim və zabit heyəti haqlı olaraq öz yetirmələri ilə fəxr edir.





















Polkovnik Elşad Həsənov göstərilən diqqət və qayğıya görə Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyəti adından dövlətimizə minnətdarlığını bildirib, kollektivin bundan sonra da yeni parlaq nəticələr qazanacağına hər kəsi əmin edib.

Heydər Əliyev adına Hərbi Liseyin məzunu Ülvi Əzizzadə 24-cü buraxılış məzunları adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib, savadlı, bacarıqlı və vətənpərvər kursantlar kimi təhsil almalarında əməyi olan komandir və müəllimlərinə, eləcə də göstərdikləri dəstəyə görə valideynlərinə ehtiramlarını bildirib, məzun yoldaşlarını təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Qeyd edib ki, Vətənimizin azadlığı uğrunda canlarından keçmiş igid və qəhrəman şəhidlərimizi unutmayaraq liseydə aşılanan Vətən sevgisi, vəzifə məsuliyyəti, intizam, şərəf və dürüstlük anlayışı ilə hərbi institutda təhsillərini davam etdirəcək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında “dəmir yumruq” kimi birləşəcək, üçrəngli bayrağımız naminə daim xidmətdə olacaqlar.

Sonra səlahiyyətli nümayəndə liseyin ingilis dili müəllimi Mətanət Eminovaya “Əməkdar müəllim” fəxri adının döş nişanını və əlaçı kursantlara attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Anar Allahverdiyev təhsil ocağının rəmzi kötüyünə 2024-cü ilin xatirə birkasını vurub.

Sonra Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Orkestrin müşayiətilə “Hərbi lisey marşı” ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Səlahiyyətli nümayəndə Ümummilli Liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

# Naxçıvan Dövlət Universitetində karyera sərgisi açılıb



İyunun 6-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə karyera sərgisinin açılış tədbiri keçirilib.

Naxçıvan Dövlət Universitetinin İdman Kompleksində təşkil olunan sərgidə İncəsənət fakültəsinin rəqs kollektivi sərgi iştirakçılarını maraqlı ifa ilə qarşılayıb.

Universitetin rektoru Elbrus İsayev sərginin təşkilinə göstərdikləri dəstəyə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Nazirlər Kabinetinə, eləcə də sərgidə fəal iştiraklarına görə digər dövlət qurumlarına və özəl təşkilatlara təşəkkürünü bildirib.

Elbrus İsayev bildirib ki, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümündə keçirilən sərginin məqsədi gənclərin dövlət və özəl sektorda ixtisasına uyğun işlə təminatını asanlaşdırmaq və etibarlı kadr təminatı yaratmaqdır. Bu baxımdan sərginin universitet məzunları üçün yaxşı bir fürsət olduğunu bildirən rektor diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universitetinin bu günədək 40 minə yaxın məzunu olub. Onların 75 faizindən çoxu ixtisasına uyğun işlə təmin olunub. Bu il isə universiteti 1600 məzun bitirir. Ötən illərin və cari ilin məzunları, eləcə də digər şəxslərin sərgidə fəal iştirakı mühüm nəticələrin əldə olunmasına əminlik yaradır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli sərginin işini qarşıya qoyulmuş perspektiv hədəflər baxımından yüksək qiymətləndirib. Bu hədəflər barədə məlumat verən Samir Seyidəhmədli qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən 11 prioritet istiqamətin əksəriyyətini sosial məsələlər və məşğulluq probleminin həlli təşkil edir. Təşkil olunan karyera sərgisi də bu yöndə atılan addımlara mühüm dəstəkdir.

Səlahiyyətli nümayəndənin müavini bildirib ki, yeni dövrün çağırışlarına cavab verən ixtisaslı



kadrların formalaşdırılmasında Naxçıvan Dövlət Universitetinin böyük imkanları vardır və bu imkanlar daha da genişləndirilir. Dövlət qurumları əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr təminatı baxımından ali təhsil ocağı ilə faydalı əməkdaşlıqda maraqlı olmalıdırlar.

Samir Seyidəhmədli bu cür birgə tədbirlərin təşkilini həm əhalinin məşğulluğunun, həm də tələbəgənclərin ixtisasına uyğun işlə təmin olunması baxımından mühüm platforma kimi dəyərləndirib, sərginin işinə uğurlar arzulayıb, məzunları fəal iştiraka dəvət edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov bildirib ki, Naxçıvan Dövlət Universiteti həm təhsilin keyfiyyətinə, həm də məzunların əldə etdiyi nailiyyətlərə görə ən mötəbər təhsil müəssisələrindən birinə çevrilib. Bu da Naxçıvanın perspektiv inkişafı üçün böyük uğurlar vəd edir. Təşkil edilən tədbir də Naxçıvan Dövlət Universiteti məzunlarının muxtar respublikanın müxtəlif dövlət və özəl təşkilatlarında karyeralarını qurmaq və davam etdirmələrinə hədəflənib.

Baş nazir vurğulayıb ki, kadr potensialının gücləndirilməsində yeni keyfiyyət mərhələsindəyik. Xüsusilə dövlət müəssisələri öz heyətinin gəncləşdirilməsinə, müasir dövrün tələblərinə uyğunlaşmış bacarıqların cəlb edilməsinə böyük maraq göstərir. Əmək bazarında rəqabət məhz müasir dövrün tələbləri ilə dinamik hərəkətdədir. Data analitikası, transformasiya, dünyanın dekarbonizasiya gündəliyi, habelə bir sıra yumşaq bacarıqlar bu rəqabətin əsas hərəkətverici qüvvəsidir.

Ceyhun Cəlilov vurğulayıb ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda insan kapitalının inkişafı əsas meyar götürülüb. Proqram çərçivəsində Naxçıvan Muxtar Respublikasının əmək bazarının intensiv inkişafı nəzərdə tutulur ki, bu da perspektivdə iqtisadiyyatın daha rəqabətədavamlı, dayanıqlı modeli ilə nəticələnməsinə gətirib çıxarır. Buna görə də əmək bazarının yeni tələblərinə uyğun etibarlı kadr bazası formalaşmalıdır. Karyera sərgisinin təşkilində də məqsəd dövlət müəssisələrinin və özəl şirkətlərin Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığını genişləndirmək və nəticədə, perspektiv əmək potensialını öz imkanlarımız hesabına təmin etməkdir. Ceyhun Cəlilov bu işlərin yerinə yetirilməsində hər kəsə uğurlar arzulayıb.

Sonra karyera sərgisinə baxış olub.

Məlumat verilib ki, sərgidə 2000-dən çox gənc üçün iş və təcrübə imkanları təqdim edilib. Məşğulluğa dəstək məqsədilə keçirilən sərgidə universitetin əməkdaşlıq etdiyi 32 dövlət qurumu və 8 özəl şirkət müxtəlif ixtisaslar üzrə vakansiya və təcrübə proqramları təqdim ediblər. O cümlədən Naxçıvan Dövlət Universiteti tərəfindən 48 vakant yer iştirakçılara təklif edilir. Bir neçə gün davam edəcək karyera sərgisində bu gün 4000-dən çox gəncin müraciəti qeydə alınıb.

# "Naxçıvan Muxtar Respublikasının yaranması: keçmişdən bu günə və sabaha" mövzusunda elmi konfrans keçirilib

İyunun 7-də Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasının yaranması: keçmişdən bu günə və sabaha" mövzusunda elmi konfrans keçirilib.

Naxçıvan Dövlət Universitetində təşkil edilən konfransda ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, məlum olduğu kimi, 30 dekabr 2023-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır. Həmin Sərəncamda Naxçıvanın keçdiyi tarixi inkişaf yolu göstərilməklə bərabər, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında oynadığı rol da geniş təhlil olunmuşdur. Sərəncamda qeyd olunduğu kimi, tarixin müxtəlif mərhələlərində ölkəmizin qeyd olunan inkişaf sahələrində Naxçıvan özünəməxsus mövqeyə və əhəmiyyətə malik olmuşdur.

İsmayıl Hacıyev bildirib ki, Naxçıvanın inkişafında Ulu Öndərin mühüm xidmətləri olmuşdur. Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Naxçıvanın hərtərəfli inkişafına diqqət yetirilmiş və Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasına Naxçıvandan başlanmışdır. Məhz Ulu Öndərin həyat fəaliyyətinin Naxçıvan dövrü, bütövlükdə, müstəqil Azərbaycanın taleyüklü dövrünü əhatə edir. Dahi rəhbərin həmin illərdə qəbul etdiyi tarixi qərarlar Azərbaycanın gələcək inkişafına, mədəni-tarixi dəyərlərimizin yaşadılmasına, daha da möhkəmləndirilməsinə hesablanmış mühüm addımlar idi.



Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov konfransda iştirak edən qonaqları salamlamış, elm adamlarını doğma Naxçıvanda gördüyündən məmnunluğunu ifadə etmişdir. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi silsilə tədbirlərlə qeyd edilir. Məhz bu gün keçirilən konfrans da həmin silsilənin davamıdır. Şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası barədə danışarkən hər kəsin ağlına ilk öncə Ulu Öndərin misilsiz xidmətləri gəlir. Ötən ilin ortalarından Naxçıvanın yeni inkişaf mərhələsi ilə bağlı çox ciddi prioritet istiqamətlər müəyyən edilib. Belə ki, cənab Prezidentin muxtar respublikanın inkişafı istiqamətində həyata keçirdiyi işlər Naxçıvanın aqrar sənaye inkişafı, logistik potensialının yerli səviyyədən regional səviyyəyə qaldırılması, "yaşıl enerji" potensialının yüksəldilməsi və turizm potensialının inkişaf etdirilməsidir. Naxçıvanın logistik potensialının inkişafı Naxçıvanın yalnız yerli yox, o cümlədən Zəngəzur dəhlizinin açılması Şərq-Qərb dəhlizinin və ümumilikdə, kontinentin logistik marşrutlarının yenidən formalaşdırılması olduqca əhəmiyyətlidir. Tranzit dəhlizlərin ölkəmizdən keçməsi, o cümlədən perspektivdə Naxçıvan Muxtar Respublikasından keçməsi yalnız iqtisadi səmərə yox, gələcəyin təhlükəsizliyi və əhalinin rifahı ilə nəticələnəcəkdir.





Ceyhun Cəlilov onu da diqqətə çatdırmışdır ki, cənab Prezidentin Naxçıvanın perspektivi barədə müəyyən etdiyi digər istiqamət isə "yaşıl enerji" ilə bağlı potensialıdır. Artıq ötən bir il ərzində bir çox anlaşma memorandumları imzalanmış, Naxçıvanın günəş və külək enerjisi resurslarının ixrac potensialı ilə bağlı bir çox məsələlər müəyyən edilmişdir. Yaxın günlərdə ölkə və Naxçıvan ictimaiyyəti mühüm tədbirlərin şahidi olacaqdır. Sözsüz ki, qeyd olunan istiqamətlər, ümumilikdə, Naxçıvanın yaxın və uzaq gələcəyinin perspektivlərini müəyyən edir.

Baş nazir bir məqamı da vurğulamışdır ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" 11 prioritet istiqaməti müəyyən edir. Bu perspektiv üzrə konkret tədbirlər və nəzərdə tutulan layihələrlə bağlı tapşırıqlar artıq müəyyən edilib. Həmin prioritetlərə nəzər salsaq, birinci məqam Naxçıvanda əlverişli biznes mühitinin formalaşdırılması, institusional inkişafın həyata keçirilməsi, infrastrukturla bağlı məsələlər, o cümlədən vacib məqam olan kadr potensialının gücləndirilməsi, turizm, səhiyyə, sosial, kənd təsərrüfatı və digər sahələrə bağlı geniş tədbirlərin həyata keçirilməsidir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasının 100 ilinin yarıdan çoxu Ulu Öndərimizin fəaliyyəti ilə bağlıdır. Bu gün Naxçıvan, sözün əsl mənasında, yeni mərhələdə özünün fərqli inkişaf dövrünü yaşayır. Bu inkişaf dövrünün şahidləri isə bizlərik.

Ulu Öndərimizin Azərbaycan haqqında, Naxçıvan haqqında arzuları, planları onun layiqli davamçısı, dövlət başçısı tərəfindən uğurla reallaşdırılır. Ölkə başçısının Naxçıvanın çiçəklənməsi uğrunda mühüm qərarlarından biri də muxtar respublikada müasir idarəetmə sisteminin tətbiq olunmasıdır. Xalqın iftixarına çevrilən ölkə Prezidentinin gündəlik diqqət və qayğısı ilə əhatə olunan qədim Naxçıvan diyarında bu gün yeni bir həyat çağlayır, dövlət başçısının Naxçıvanın kiçik problemlərinə belə böyük həssaslıqla yanaşması hər birimizi sevindirir.

Konfransda AMEA-nın prezidenti İsa Həbibbəyli "Naxçıvan Muxtar Respublikasının inkişafı: tarix və müasirlik" mövzusunda çıxış edərək Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamı Naxçıvan Muxtar Respublikasına göstərilən qayğının təzahürü kimi qiymətləndirib. Qeyd olunub ki, həmin Sərəncam Naxçıvanın muxtariyyat tarixinin və inkişaf yolunun müstəqillik ideyaları əsasında Azərbaycançılıq mövqeyindən yenidən öyrənilməsinə mühüm stimul verir. Bu qayğı Naxçıvanın yeni dövr inkişafını istiqamətləndirir, onun sabahını daha aydın təsəvvür etməyə imkan verir. Bu gün keçirilən elmi konfransın mühüm əhəmiyyət kəsb etdiyini deyən akademik İsa Həbibbəyli özünün yeni dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasının gələcək perspektivlərindən danışıb.

Akademik müvafiq Sərəncamın Naxçıvanın muxtariyyət tarixinin və inkişaf yolunun müstəqillik ideyaları əsasında Azərbaycançılıq mövqeyindən yenidən öyrənilməsində mühüm önəm daşıdığını diqqətə çatdırıb. Qeyd olunub ki, Naxçıvan tarixin müxtəlif mərhələlərində üzərinə düşən vəzifələri uğurla yerinə yetirmiş,

Ardı 6-cı səhifədə

böyük dövlətlərin bölgə ilə bağlı maraqlarına rəğmən Naxçıvan əhalisi bölgənin müdafiəsini təmin etmişdir. Müasir dövrdə də Naxçıvan mühüm Dövlət proqramlarının yerinə yetirilməsində fəal iştirak edir, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir.

Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru Famil Mustafayevin “Naxçıvan Muxtar Respublikasının elmi müəssisə, təşkilat, ali təhsil müəssisələrində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması: uğurlar, nailiyyətlər” mövzusunda çıxışı dinlənilib. Bildirilib ki, son illər muxtariyyətdə sosial-iqtisadi sahədə şəffaflığın təmin edilməsi və real inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi dövrü kimi qiymətləndirilməlidir. Naxçıvan Muxtar Respublikası bu gün Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Famil Mustafayev Naxçıvanın beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardan olduğunu vurğulamışdır. Qeyd olunub ki, Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika “yaşıl enerji zonası” elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində davamlı işlərin aparılmasının şahidiyik.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da elm və təhsil sahələrinin inkişafı daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”, heç şübhəsiz ki, muxtar respublikanın qarşıdakı illərdə sürətli inkişafında çox mühüm rol oynayacaqdır.

Sonra Türkiyə Cümhuriyyəti Milli Savunma Universitetinin Kara Harp Okulu dekanı, tarix elmləri doktoru, professor İbrahim Ethem Atnurun “Naxçıvan Muxtar Respublikası yetirmələrinin fizika sahəsində əldə etdiyi nailiyyətlər”, Qars Qafqaz Universiteti, tarix elmləri doktoru, professor Selçuk Uralın “Azərbaycanın bağımsızlık sürəcində Naxçıvandakı gəlişmələr” mövzularında çıxışları dinlənilib.

Konfransın bədii hissəsində “Naxçıvan Muxtar Respublikası-100” sənədli televiziya filminə baxış olub, Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin xalq çalğı alətləri orkestrinin konserti nümayiş etdirilib və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bir qrup elm adamına Ali Attestasiya Komissiyasının sədri tərəfindən diplomlar təqdim edilib.

Konfrans bölmə iclasları ilə davam edib.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Naxçıvan Dövlət Universitetinin yeni loqosu ictimaiyyətə təqdim edilib

Loqonun təqdimatında Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, öz dövrünə görə vizual-lıq baxımından müxtəlif meyarlara uyğun olsa da, zaman keçdikcə universitetin loqosunun dəyişilməsi və daha müasir standartlara cavab verən, zamanın tələblərinə uyğun olan yeni bir loqonun ərsəyə gəlməsi üçün müəyyən bir zərurət yaranmışdı. Bu məqsədlə bir ildən artıq davam edən müsabiqəyə 100-dən artıq təqdimat qəbul edilib. Müsabiqənin səsverməsinin sorğu şəklində keçirildiyini bildirən rektor loqotipin təkliflərini ictimaiyyətdən, həmçinin Naxçıvan Dövlət Universitetinin kollektivi üzvlərindən alındığını qeyd edib.

Elbrus İsayev vurğulayıb ki, yeni loqo kifayət qədər sadədir. Loqoda Naxçıvanın rənglərinə üstünlük verilib. Loqo hazırlanarkən Naxçıvanın özünün təbii, orijinal təbiətdən aldığı və min illərdir, abidələrimiz üzərində yaşayan təbii rəngləri yenidən kəşf etdik. Eyni zamanda loqomuzda həm tələbə yönümlülük, eyni zamanda təhsil, tədqiqat, innovasiya mövzusu nəzərə alınıb. Loqotipimiz gələcək elmi, innovasiyanı təşviq edən, onu simvolizə edən bir göstərici kimi bu gün kollektivimizə, ictimaiyyətə təqdim olunur. Əminəm ki, bu loqonun işığında Naxçıvan Dövlət Universiteti bundan sonra daha böyük uğurlara imza atacaq.

Naxçıvan Dövlət Universitetinin şöbə müdiri Vüsal Novruzov universitetin yeni loqosunu təqdim edərək qeyd edib ki, loqodakı rəng seçimləri – firuzə mavisi Naxçıvanın təbiətini, qızılı isə günəşli torpaqları xatırladır. Dizaynda istifadə olunan müasir və minimalist üslub, universitetin yeniliklərə açıq olduğunu və müasir təhsil metodlarının tətbiqi barədə ilkin rəy yaradır. Loqo universitet ağacı konsepsiyasında yığılıb. Loqoda yer alan meyvə və çiçəklər məzunları, tələbələri simvolizə edir.

Vüsal Novruzov çıxışı zaman söyləyib ki, loqoda əks olunan bütün ornamentlər elmi simvolizə edir. İnsanın mərkəzdə dayanması isə insan mərkəzli, tələbə mərkəzli bir təhsil sistemi və qurum olduğunu göstərir. Yeni loqo universitetin təhsil, tədqiqat və innovasiya imkanlarını yaradıcılıq elementləri fonunda özündə birləşdirir.

Qeyd edək ki, sürətlə modernləşən NDU-da həyata keçirilən kompleks tədbirlər yeni dövrün universitetinə çevrilmək məqsədinə xidmət edir.

# Naxçıvanda *“Uşaqların rəngli dünyası”* adlı bayram tədbiri keçirilib



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan “Uşaqların rəngli dünyası” adlı bayram tədbiri keçirilib. Tədbirdə dövlət, hökumət nümayəndələri, ictimai təşkilatlar, uşaq bağçaları, musiqi məktəbləri, yaradıcı kollektivlər, ictimaiyyət üzvləri, uşaqlar, valideynlər iştirak ediblər. 300-ə yaxın uşaq “Böyük bağ” adlanan ərazinin qarşısından tədbirin təşkil olunduğu Əcəmi seyrəngahına yürüş edib.

Bayram tədbirində əvvəlcə uşaqlara daim böyük qayğı göstərən Ümummilli Liderimiz Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib. Qeyd olunub ki, ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması, təhsili, asudə vaxtının səmərəli təşkili, həmçinin istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər görülür. 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə belə möhtəşəm tədbirin keçirilməsi də uşaqlara göstərilən yüksək qayğının bariz nümunəsidir. Bugünkü bayram tədbiri həm də ay ərzində muxtar respublikanın bütün rayonlarında keçirilən uşaqlarla bağlı maarifləndirici tədbirlərin yekunudur.

Sonra Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının balaca fidanları şeirlər səsləndirib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Uşaq musiqi məktəblərinin yaradıcı kollektivləri bir-birindən maraqlı musiqi və rəqs nümunələri ilə çıxış ediblər.

Bayram tədbiri çərçivəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu (“YAŞAT” Fondu), Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən şəhid, qazi ailələrinin uşaqlarına, sağlamlıq imkanları məhdud balacalara, Ordubad şəhər tam orta internat məktəbinin şagirdlərinə hədiyyələr təqdim olunub. Yeniyetmə və gənclər üçün nəşr olunan “Məktəbli” qəzetinin nömrələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin və digər yaradıcı şəxslərin, kollektivlərin əl işləri, rəngarəng stendlər uşaqlarda böyük maraq yaradıb. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Modern Psixoloji Mərkəz əyləncəli oyunlar, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi müxtəlif müayinələr təşkil edib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Mədəniyyət nazirliklərinin, Naxçıvan Dövlət Universitetinin, “Cahan” Holdinqin kollektivləri də öz fəaliyyətləri ilə tədbirə töhfə veriblər. Eyni zamanda iştirakçıların asudə vaxtının, mədəni istirahətinin təmini üçün ərazidə iaşə xidmətləri də təşkil olunub.





Tədbir uşaq musiqi məktəbləri kollektivlərinin bədii kompoziyası ilə davam edib.

**Nail ƏSGƏROV**









# Yurdun uca zirvəsidir Naxçıvan



Naxçıvan... Ana qədər müqəddəs əziz, doğma, ulu diyar... Düşmən əhatəsində alınmaz bir qalaya çevrilən müqəddəs torpaq. Kimi Nuh çıxan, kimi Nuh varan torpaq, kimi də Nəqşi-cahan – dünyanın bəzəyi kimi vəsf edib bu ulu diyarı, mərdlər yurdu Naxçıvanı. Əzəmətli, vüqarlı dağların əhatəsində qərar tutan, zəngin tarixi keçmişə, maddi və mənəvi dəyərlərə malik qədim Oğuz-türk torpağıdır Naxçıvan. Hər qayasından mif, əsatir süzülən, hər daşında bir tarix uyuyan Naxçıvan...

İlk insan məskəni, mifik-genetik yaddaş saxlancımız əfsanəvi Gəmiqaya, müqəddəs ziyarətgah sayılan daş abidəmiz – Əshabi-kəhf Naxçıvanın qədimliyindən çox həqiqətləri hifz edir. Uca dağlarında ulu babalarımızın qadir əlləri ilə qazdıqları qaya oyuqları, kahalar, mağaralar ilk insan məskənlərindən soraq verir.

Tarixi məxəzlərə istinadən Naxçıvanın dəfələrlə taleyin amansızlığına düçar olduğu, dağıldığı və hər dəfə də yenidən qurulub tərəqqi etdiyi ehtimal olunur. Naxçıvan Çingiz xan ordusunun basqınlarına məruz qalıbdır, Teymurləngin qoşunları ilə döyüşübdür. Taleyin amansız gərdişinə dözüb, tarixin sərt sınaqlarına sinə gərib ulu məkanım. Fatehləri diz çökdürən, yadellilərə boyun əyməyən mərdlər diyarı Naxçıvan... Hər zaman indiki kimi düşmən əhatəsində, blokada məngənəsində olmayıb, Araz çayı ilə də sərhədlənməyib. Söykəndiyi, güc aldığı qalalı, bürclü dağlar da gavur ermənilərlə sərhəd olmayıb. Bu dağların o üzü də Vətən olub. Yurdumuzun mənəvi pasportu saydığımız "Kitabi-Dədə Qorqud" dastanında da Naxçıvan Azərbaycan adlı məmləkətin mərkəzində yerləşib. Bir ucu Kərkükdən Göyçəyə, bir ucu da Ərzurumdan Dəmirqapı Dərbəndə Vətən olub qədim Oğuz-türk yurdu.

Öz gücünə arxalanaraq sıyrılan qılınca dönüb bu kiçik Vətən torpağı. Zaman-zaman erməni məkrinə, hiyləsinə tuş olub. Bu gün hər kəsə aydındır ki, Naxçıvanı işğal, məhv olmaq təhlükəsindən Heydər Əliyev zəkası xilas edib.

Ümummilli Liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilib. Xalqımız müdrik rəhbərimiz Heydər Əliyevin ətrafında sıx birləşib düşmənə qarşı döyüşdü, dözdü, yaşadı. Naxçıvana dahi rəhbər müqəddəs bir yer kimi baxırdı. Naxçıvanlıların ona böyük hörmət, qayğı, məhəbbət göstərmələrini, ən ağır anlarda Onun dayağı olaraq arxasında durmalarını Ümummilli Liderimiz həmişə yüksək dəyərləndirərək deyirdi: ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur".***

Qismətimizə Azərbaycan adlanan bir məmləkət düşüb. Pərvanə kimi bu məmləkətin başına dolanırıq, onun ağrı-acısı ürəyimizi göynədir, sevinci qəlbimizi dağa döndərir. Bu Vətəni sevə-sevə böyümüşük, özümüz böyüdükcə sevgimiz, məhəbbətimiz də böyüyüb. Bu yurd, bu torpaq ulu Tanrının bizə tale payıdır. Göz açıb gördüyümüz, sinəsində ayaq açıb yeridiyimiz bu torpaq dağı, daşı ilə, gülü, çiçəyi ilə ürəyimizə, qəlbimizə köçüb. Adını iftixarla çəkdiyimiz doğma Naxçıvan isə Azərbaycanımızın ayrılmaz bir guşəsi kimi özünün yeraltı və yerüstü təbii sərvətləri ilə, zəngin maddi-mənəvi mədəniyyət abidələri ilə dünya tarixində, mədəniyyət xəzinəsində özünəməxsus yer tutur.

## Ulu Öndər Heydər ƏLİYEV:

> ***"Naxçıvan Azərbaycanın gözəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir."***

Böyük karvan yolunun üzərində yerləşən bu qədim Oğuz-türk diyarı tarixin kəhkəşanlı yollarında bir çox imperatorluqlar, sultanlar, xaqanlar tərəfindən dəfələrlə dağıdılmış, yadelli hücumlarına məruz qalmışdır. Bunun bir bəlası da onun coğrafi mövqeyi, İpək Yolunun üzərində yerləşməsi ilə bağlı olub. Bu yol yenə də inkişafa, tərəqqiyə yönəlib. Ümummilli Liderimiz Heydər Əliyev çıxışlarının birində dediyi kimi: ***"Böyük İpək yolu keçmişdən başlasa da, gələcəyə doğru gedən yoldur..."***

Qədim və həmişəcavan Naxçıvan! 3500 yaşlı ulu şəhərim. Şərqin qapısında, Xan Arazın sahilində Nəqşi-cahan... Səndə tarixlərin nə qədər nişanələri var. Qədimliyin Gəmiqaya abidələri, yeraltı sərdabələrinlə çiçəklənən mədəniyyətin Möminə xatın məqbərəsi ilə pasportlaşıb. Sənin əzəmətinin, çiçəkli dövranının sədaları orta əsrlərdən gəlir. Araz sənin bel kəmərin, ətraf sipər dağlar boyunbağın olub. Beləcə, əsrlərin sınağına sinə gərmisən. Dostun qəlbinə məlhəm, düşmənin gözünə ox olmusan. Səndə gözü olan yağılara əyilməmisən. Sinənə oxlar dəyib, qəlbinə yaralar vurulub, lakin qəddini düz saxlamısan, Odlar yurdu Azərbaycanın əyilməzlik simvolu kimi yaşayaraq qurmusan, yaratmısan. Onun ayrılmaz guşəsi kimi qəlbinin parası olmusan.

Bu gün azadsan, doğma diyarım, xoşbəxtsən. Üfüqlərində istiqlal günəşi parlayır. Bu azadlıq məşəlini yandıran övladlarını sevirsən, əzizləyirsən, unutmursan. Bugünkü müstəqilliyin, tərəqqi və yüksəlişin, muxtar respublika paytaxtı kimi çiçəklənməyin isə böyük övladın, dahi şəxsiyyət, xilaskarımız Ümummilli Liderimiz Heydər Əliyevin adı və parlaq əməlləri ilə bağlıdır. Bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərən, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafını, yüksəlişini, təhlükəsizliyini təmin edən Ulu Öndər mənalı həyatı və siyasi fəaliyyəti boyunca özünü yox, ancaq xalqını düşünüb. ***"Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir".*** Ulu Öndərin Naxçıvana verdiyi bu qiymət qədim yurdumuz haqqında ən dəqiq və tarixi gerçəklikləri özündə ehtiva edən bir qiymətdir.

100 illik muxtariyyətini qeyd edən Naxçıvanın tərəqqisi Azərbaycanı dünyaya tanıtdıran Ulu Öndərin adı ilə bağlıdır. Dahi şəxsiyyətin dediyi kimi: ***"Naxçıvan Azərbaycanın gözəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir".***

**Sevinc BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin müəllimi, Azərbaycan və beynəlxalq müsabiqələrin Qran-Pri və Prezident mükafatçısı***

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*

## "Naxçıvanda caz sədaları" adlı konsert keçirilib

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş "Naxçıvanda caz sədaları" adlı ilk konsert proqramı keçirilib.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin iştirak etdiyi konsert proqramında universitetin rektoru Elbrus İsayev Azərbaycan Milli Konservatoriyasının xüsusi dəstəyi ilə keçirilən konserti yüksək qiymətləndirib. Qeyd edilib ki, konservatoriya ilə qurulan əməkdaşlığımız hər zaman öz müsbət nəticələri ilə yadda qalmaqdadır. Rektor Naxçıvanda caz musiqisinin təməlini qoyan müəllim və tələbələrin təşəbbüsünü alqışlayaraq onlara yaradıcılıq uğurları arzulayıb. Elbrus İsayev universitetin müəllim və tələbələri ilə yanaşı, Azərbaycan Milli Konservatoriyasının müəllimi, Əməkdar artist, caz ifaçısı Emil Əfrasiyabın da bu səhnədə çıxışını iki ali təhsil müəssisəsi arasında qurulan əməkdaşlıq əlaqələrinin nümunəvi davamı kimi qiymətləndirib.

Konsertdə caz musiqisinin tarixi və Azərbaycanda yaranması barədə məlumat verilib. Qeyd edilib ki, cazın ən əsas xüsusiyyəti onun improvizasiyasıdır. Musiqiçilər orkestrdə, eləcə də soloda olduğu kimi improvizasiya etməyi bacarmalıdırlar. Vurğulanıb ki, Azərbaycan cazının inkişaf dövrü musiqiçi və bəstəkar Vaqif Mustafazadənin adı ilə bağlıdır. Azərbaycanın caz tarixi öz başlanğıcını XX əsrin 30-cu illərindən götürür.

Ali təhsil ocağının İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında Pink Martinin "Carioca", Bill Evansın "Autumn leaves", Frenk Sinatranın "Strangers in the Night", Poul Desmondun "Take Five", Vaqif Mustafazdənin "Mart", "Gəlmədi", Əzizə Mustafazadənin "Danceof fire", "Boomerang" və digər musiqilər səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin nigeryalı tələbəsi Josef Okpamenin də konsertdə çıxışı alqışlarla qarşılanıb.

Azərbaycan Milli Konservatoriyası, Populyar musiqi və caz ifaçılığı kafedrasının müdiri, pianoçu, bəstəkar, Əməkdar artist Emil Əfrasiyab özünün yazdığı "İki dünya" əsəri, Azərbaycanın görkəmli caz-muğam ustadı Vaqif Mustafazadənin "Mart" əsəri, Vaqif Mustafazadənin qızı, məşhur caz müğənnisi və pianoçusu Əzizə Mustafazadəyə ithaf etdiyi "Əzizə" adlı əsərini və digər əsərləri ifa edib.

Emil Əfrasiyab konserti yüksək qiymətləndirib. Müəllim və tələbələrin bu təşəbbüsünü alqışlayıb. Vurğulanıb ki, çox sevindirici haldır ki, Naxçıvanda caz musiqisi artıq yaranır və bu gənclərin timsalında inkişaf edəcək.



Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Konservatoriyası arasında qurulan əməkdaşlıq əlaqələrinin davamı olaraq Populyar musiqi və caz ifaçılığı kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar artisti, məşhur caz ifaçısı Emil Əfrasiyab və Azərbaycan Milli Konservatoriyasının zərb aləti üzrə müəllimi Elvin Bəşirov Naxçıvan Dövlət Universitetində ustad dərsi keçiblər.









# Yüz ilin təhsil ocağı

## Kükü kənd məktəbi



Bu günlərdə Naxçıvan Muxtar Respublikasının təhsil ictimaiyyəti üçün əlamətdar günlər yaşanmaqdadır. Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin 20 illik və Şahbuz rayon Kükü kənd tam orta məktəbinin 100 illik yubileylərinin qeyd olunması istər muxtar respublikanın, istərsə də ölkəmizin ictimai-mədəni həyatında mühüm hadisədir.

Naxçıvan Muxtar Respublikasında özünün tarixi və təhsilin inkişafına verdiyi töhfələrə görə seçilən xeyli sayda məktəblərimiz var. Şübhəsiz, Şahbuzun ucqar dağ kəndi Kükü məktəbi kimi yaşı bir əsrə çatan təhsil ocaqlarımız haqqında söhbət düşəndə ancaq keçmiş gözəl xatirələr, ömrünü təmənnasız olaraq gənclərin yetişməsinə həsr etmiş qocaman müəllimlər və onların əməyinə dəyər verməyi bacaran yetirmələr yada düşür. Ona görə də 1924-cü ildə fəaliyyətə başlamış Şahbuz rayonu Kükü kənd tam orta məktəbinin 100 illik yubileyinin keçirilməsi haqqında verilmiş qərar təkcə bu məktəbdə fəaliyyət göstərən pedaqoqların, yaxud burada ömür qoymuş müəllimlərin, onların övladlarının deyil, ümumilikdə, bütün kükülülərin və təhsil ictimaiyyətinin böyük sevincinə səbəb olmuş, minnətdarlıqla qarşılanmışdır.

Kükü məktəbi haqqındakı yazı, ümumiyyətlə, bu kəndin dünəni, bu günü, onun müasir sosial-mədəni həyatı, ziyalıları və hazırda burada təhsil alan gənclərin gələcək arzularını ifadə edən ən yaxşı kompozisiya olardı. Odur ki, 100 yaşlı doğma məktəbimiz haqqındakı düşüncələri bu məktəbin yaranması, keçdiyi maraqlı tarixi və müasir inkişaf səviyyəsi ilə bağlı faktlarla zənginləşdirən məlumatlar mənim üçün olduqca dəyərli olub, bunları mənimlə paylaşan bütün ziyalı həmkəndlilərimə bəri başdan dərin minnətdarlığımı da ifadə edirəm.

Kükü kənd məktəbinin tarixi ölkəmizin və Naxçıvanın keşməkeşli dövrünə, 1924-cü ilə gedib çıxır. Naxçıvan Muxtar Respublikasının da yaradılması ilə tarixə düşmüş həmin ildə Naxçıvan şəhərindən 52 kilometr məsafədə yerləşən Kükündə ilk məktəbin açılması o dövrün şərtlərinə görə olduqca mühüm hadisə olmuşdur. Şahbuz kimi ucqar və dağlıq bir bölgədə 1923-1924-cü tədris ilində fəaliyyətə başlamış məktəbimizin yaradılması ilə bağlı 103 yaşlı “Şərq qapısı” qəzetinin səhifələrində qiymətli yazılar, eləcə də kənd camaatının şəxsi arxivlərində sənədlər və yaşlı kənd sakinlərinin yaddaşlarında xatirələr vardır. Qəzetimizin 1 may 1954-cü il sayında o zaman məktəbin ilk 6 nəfər məzunundan biri olmuş Xudayar Quliyevin imzası ilə dərc olunmuş “Kükülülərin minnətdarlığı” başlıqlı yazıda həmin il məktəbdə 219 nəfər şagirdin təhsil alması qeyd olunur. Şübhəsiz, ölkənin müharibədən təzə çıxdığı bir dövrdə və həm də bu müharibədə 78 sakinini itirən ucqar bir kənd üçün bu çox diqqətəlayiq nəticə idi.

Məktəbimizdə 40 ildən artıq tarix müəllimi işləmiş atam Xeybər Cabbarovun, eləcə də digər dəyərli kənd ziyalılarımızın xatirələrində o zaman Kükü məktəbinin keçmişi haqqında qiymətli məlumatlar vardır. Belə ki, ilk direktor Xudayar Quliyevin xatirələrinə görə hələ 1924-cü ildə ozamankı Kükü kənd məktəbi kəndin tanınmış adamlarından olmuş Əlimərdan bəyin evinin bir hissəsində təşkil olunmuşdur. O zaman təhsilə də ciddi önəm verən Əlimərdan bəy könüllü olaraq kənddəki malikanəsindəki otaqlarından bir neçəsini məktəb üçün ayıraraq burada “Bir dərəcəli, 5 sinifli oğlan məktəbi” açmaq üçün qəza rəhbərliyi ilə razılaşır və bütün təşkilati məsələləri də öz üzərinə götürür.

Bundan sonra Kükü məktəbi qısa müddətdə inkişaf edir. İlk dövrlərdə məktəbdə dərs demək üçün Cəhridən Mirzə Sadiq və Mirzə Həbib, Şahbuzkənddən Əli müəllim, Nehrəmdən Mirzə Cəfər, Naxçıvan şəhərindən Tələt müəllim kimi o dövrün pedaqoqları dəvət olunsalar da, artıq sonrakı illərdə əsas yük yerli kadrların üzərinə düşmüşdür. Belə ki, 1928-1929-cu dərs ilindəki ilk 6 nəfər məzundan olmuş və məktəbi əla qiymətlərlə qurtaran Xudayar, Sərvər və İbrahim təhsillərin davam etdirmək üçün Naxçıvan şəhərindəki Pedaqoji Texnikuma daxil olurlar. Və burada da onlar Əlimərdan bəyin daim dəstəyini görürlər. Əlimizdə olan həmin məqaləyə əsasən deyə bilərik ki, İkinci Dünya müharibəsi illərində çətin dövrlər keçirmiş Kükü məktəbi fəaliyyətini bir gün də dayandırmadan yoluna davam etmiş və 1951-52-ci tədris ilindən orta məktəb adı almışdır. 1954-cü ildə artıq 12 nəfər yerli kadrın çalışdığı məktəbdən 213 nəfər məzun olmuş, onlardan 40 nəfəri müəllim, 2 nəfəri həkim olmuş, 1 nəfəri isə Moskva Sənaye İnstitutunda Mühəndis ixtisasına yiyələnmişdir.

Bir məktəb üçün ən ali göstərici burada çalışan müəllim kollektivinin mənəvi bütövlüyü və yetirmələrinin yüksək yerlərdən gələn səs-sədasıdır. Kükü məktəbi də hər iki keyfiyyət göstəricisinə görə bu gün yubilyar adını şərəflə daşıyır. Məktəbin “Yüz ilin məktəbi” guşəsində sərgilənən və kənd əhalisinin şəxsi arxivindəki mövcud fotolar, məzunların xatirələri hələ 50-60 il əvvəl burada fəaliyyət göstərmiş el ağsaqqaları pedaqoqların nə qədər əlbir fəaliyyət göstərdiyini sübut edir. Müxtəlif illərdə məktəbə rəhbərlik etmiş Azərbaycan Respublikasının Əməkdar müəllimi Xudayar Quliyev (1952-1962), Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Allahqulu Quliyev (1962-1981), Əfsər İbrahimov (1981-1988), “Tərəqqi” medallı Mirnəqim Seyidov (1988-2011), Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Araz Məmmədov (2011-2016) bu məktəbin uğurları üçün çalışmış, hazırda gənc direktor, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mayis Məmmədov da burada çalışan pedaqoqların dəstəyi ilə bu ənənəni layiqincə davam etdirir. Artıq dünyalarını dəyişsələr də, bir zamanlar bu məktəbdə on illər boyu, sözün əsl mənasında, can qoyaraq və yetirmələrinin əməkdarına çevrilmiş Xeybər Cabbarov, Xudayar Quliyev, Allahqulu Quliyev, Səfərəli İsmayılov, Adil Seyidov, Əfsər İbrahimov, Abbas Cabbarov, Quşdan Qəhrəmanov, Yelmar Bağırov, Müzəffər Hüseynov, Əkrəm Hüseynov, Əvəz Hüseynov, Çölü Məmmədov, Sərhəd Səfərov, İman Salahov, Tofiq Seyidov, Sabir Quliyev, Valeh Salahov, Əbdüləli Nəbiyev, Mirabdulla Seyidov, Fətulla Kürdov, Məmmədhüseyn Hüseynov, Qadir Məmmədov, Əzim Əliyev, Qadir Quliyev, Mircəfər Seyidov, Yaqubəli Hüseynov, Əli Məmmədov, Səməd Hüseynov, Əli Səfərov, İsmayıl Salahov, Süleyman İbrahimov, Əfsər Ələsov, Həsən Eylazov, İsa Rəcəbov, Etibar Səfərov, Mirhüseyn Seyidov, Rasim Quliyev bu gün yetirmələri tərəfindən minnətdarlıqla xatırlanırlar.

Kükü məktəbinin yüzillik tarixinə baxdıqda yetirmələr arasında mühüm dövlət xadimləri, elm və təhsil işçiləri, həkimlər, mühəndislər, aqronom-zootexniklər və sadə əmək adamları olduğunu görürük. Birinci və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış kükülülərdən Novruzəli Quliyevin, Müşfiq Həsənovun və Kamran Hüseynovun şərəfli həyat yolları bu gün məktəbdə təhsil alan gənclər üçün ən böyük örnəkdir. Hələ İkinci Dünya müharibəsi illərində Bakıda Dilçilik İnstitutunda böyük elmi işçi kimi çalışmış Nəcəf Muradov, 1950-ci illərdə Naxçıvanın kənd təsərrüfatı naziri olmuş Hidayət Axundov, həmin dövrdə Dövlət Təhlükəsizlik Komitəsində yüksək vəzifə tutmuş Nurməmməd Axundov, 1997-2015-ci illərdə Şamaxı Astrofizika Rəsədxanasının direktoru olmuş AMEA-nın müxbir üzvü Əyyub Quliyev, 1989-1996-cı illərdə Naxçıvan Dövlət Universitetinin rektoru olmuş professor Qasım Hüseynov, Tibb Universiteinin dekanı olmuş Əkbər Quliyev, ADPU-nun professoru olmuş Quşdan Bağırov, AMEA-nın əməkdaşı, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Ceyhun Bağırov, tibb üzrə fəlsəfə doktoru Şəmsi Axundov, Əlcəzair və Misir universitetlərində mühazirələr oxumuş BDU-nun dosenti Rəhim Muradov, şəhid atası, Moskva Kənd Təsərrüfatı Akademiyasının məzunu Bəhman Hüseynov, bütün Şahbuzda hörmət sahibi olmuş məşhur həkim Mötəbər Hüseynov, hazırda Bakı şəhərində yaşayan tanınmış həkim İsfəndiyar Ələkbərov, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri olmuş Famil Seyidov, Azərbaycan Neft-Kimya İnstitutunun professoru Vaqif Seyidov, kimya üzrə fəlsəfə doktoru Qəşəm Səfərov Kükü məktəbinin yetirmələrindəndir. Hazırda isə təkcə Naxçıvandakı ali məktəblərdə 10-dan artıq Kükü məktəbinin məzunu olmuş müxtəlif elmi dərəcəli kadrlar fəaliyyət göstərir. Ümumilikdə isə Kükü məktəbini bitirənlər arasında bir akademik, yeddi nəfər elmlər doktoru, 32 nəfər fəlsəfə doktoru, yeddi nəfər “Əməkdar müəllim”, bir nəfər “Əməkdar jurnalist”, altı nəfər “Tərəqqi” medalı və digər fəxri adlara layiq görülmüş şəxslər vardır. Bütün bunlar yaxın keçmişdə, 1970-80-ci illərdə bir ildə 600 nəfərə yaxın şagirdin təhsil aldığı və hər il ortalama 40-50 nəfərin məzun olduğu Kükü kənd məktəbinin ölkəmizə qazandırdığı ziyalıların, sadəcə, bir hissəsidir.



Müasir dövr Kükü məktəbi üçün uğurlarla doludur. Ötən əsrin 90-cı illərinin əvvəlindəki çətin dövrlərin sınaqlarından uğurla çıxmış Kükü məktəbi böyüklərdən miras qalan elmə, təhsilə bağlılığını indi də səylə davam etdirir. Hazırda 41 şagirdin təlim-tərbiyəsi ilə məşğul olan 19 müəllimin çalışdığı Kükü məktəbi bütün Şahbuz rayonu üzrə təhsil göstəricilərindəki keyfiyyət faizinə ən çox töhfə verən tədris ocağıdır. 2009-cu ildə 695 balla I qrup üzrə ölkə birincisi olaraq Prezident təqaüdü almış Aygül Salahlı, 2023-cü ildə 668 balla “Qızıl” medala və Prezident təqaüdünə layiq görülmüş Əli Məmmədli, “Qızıl” medallılar Səfa Rzayeva və Haldun İsgəndərov məhz Kükü məktəbinin yetirmələridirlər. Ümumilikdə, 2016-cı ildən məktəbin məzunları arasında qəbul faizi hər il 90 faizdən yuxarı olmuş, şagirdlər müxtəlif bilik yarışlarında uğurlu nəticələr göstərmişlər. Bu il məktəbi bitirəcək 9 məzundan isə gözləntilər daha böyükdür.

Hazırda 198 yerlik Kükü kənd məktəbi yeni tədris avadanlıqları, sinif və laboratoriya otaqları ilə təchiz olunub, müasir tədris şəraiti yaradılıb. Bu gün Kükü kənd məktəbi tam suveren ölkəmizin layiqli vətəndaşlarını yetişdirmək üçün üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlir, gələcəyin xoşbəxt gənclərini yetişdirir. Və beləcə, bütün kükülülər kimi təhsil illərində saç ağartmış Mirnəqim Seyidov, Məmməd İsmayılov, Qönçə Məmmədova, Heydər İsgəndərov, Afət Hüseynov, Əhliman Məmmədov, Yunis Quliyev və digər təqaüdçü qocaman müəllimlər də bu məktəb yollarında uğur qazanmış yetirmələrinə baxıb sevinərək bu yüz ildən növbəti yüz ilə yaşaya bilməyin də xoşbəxtliyini bir-biri ilə bölüşürlər.

***Yüz ilin mübarək, doğma Kükü məktəbimiz!***

**Əli CABBAROV**





*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Şahbuzkəndindən olan şəhidimiz Cavid Bayramlının anası Sədaqət Rüstəmovanın, Şahbuz rayonunun Külüs kəndindən olan şəhidimiz Zülfü Rzayevin anası Məhparə Rzayevanın və Babək rayonunun Qahab kəndindən olan şəhidimiz Abbasəli İsmayılovun anası Tamara İsmayılovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Cavid Əhliman oğlu Bayramlı

*(10.06.1994-30.11.2021)*

### Sanki övladından ayrılacağını bilirdi...





Cavid hərbçi olmağı özü seçmişdi. Dərslərini yaxşı oxuyurdu. İmtahanlarda 500-dən yuxarı bal toplayırdı. Dedim, başqa bir ixtisas seç. Amma Cavid buna razı olmadı. Atasının və mənim qarşı çıxmağımıza baxmayaraq, özü gedib sənədlərini topladı.

Elə ifallı uşaq idi ki. Naxçıvanda hərbi liseydə oxuyanda hər həftə sonu evə gəlirdi. Bir dəfə gəlmədi. Mən onun yanına getməli oldum. Dedi, ana, bir də yanıma gəlsən, mən buradan qaçacağam. İstəmirdi, uşaqlar görsünlər ki, biz onun yanına getmişik.

Ali hərbi məktəbdə də çox yaxşı oxuyurdu. Baş leytenant kimi bitirəcəkdi məktəbi. Amma təlimlərdə paraşütdən atılan zaman ayağı sınmışdı. Sonra qaçışı zəif olduğu üçün məktəbi leytenant rütbəsində bitirdi.



Evləndiyi xanımla dörd il bir-birlərini istədilər. 2016-cı ilin 31 dekabrında toyları oldu. Cavidimin bir qızı var. O bizə balamızın əmanətidir.

Cavid çox işgüzar, hər kəsin yerini bilən uşaq idi. Özü öz ayaqları üstündə dururdu. Qardaşı xəstə olduğu üçün onun qayğısına çox qala bilmirdik. Hətta öz toyunu özü etdi. Qardaşının yanında qalmalı olduğumuz üçün ancaq toy günü Bakıya çata bildik. Toyuna hazırlaşanda hər şeyi telefonda mənimlə məsləhətləşirdi.

Ailəyə o qədər bağlı idi ki, ifadə etmək olmur. Qızını qucağına alırdı. Onu o qədər öpürdü ki, İlahi. Sanki bilirdi ki, ayrılacaqlar. Atası deyirdi ki, Cavid elə eləmə. Allaha xoş getməz. Deyirdi, ata, özümdən asılı deyil, doymuram. İndi uşaq da “onsuz” ayrı qala bilmir. Bir həftə məzarını ziyarət etmədikdə xəstələnir. Məzarının yanında atası ilə pıçıltıyla danışır.

Cavid 30 noyabr 2022-ci ildə şəhid olub. Vətəninə, millətinə, xalqına o qədər bağlı idi ki... II Qarabağ döyüşlərində də aktiv iştirak etmişdi. Cavid bizi yaralı qoyub getdi. Düzdür, qürurluyuq, mətinik. Amma balamı itirdim. Çox ağırdır. Yenə də Vətən sağ olsun!

## Zülfü Zülfəli oğlu Rzayev

*(09.05.1993-27.09.2020)*

### Lələtəpəyə bayraq sancan şəhidim







Zülfü kiçik yaşlarından dəcəl uşaq idi. Məktəbdən bir şikayət olan kimi tez Zülfüdən şübhələnirdim. Amma böyüdükdən sonra başqa uşaq oldu. Onun hərəkətləri yadıma düşdükcə fikirləşirəm ki, Zülfü, həqiqətən, şəhid doğulub.

Zülfü çox diqqətcil, mehriban idi. Şəhid olduqdan sonra cib dəftərçəsi əlimizə gəlib çatdı. Baxdıq ki, nə qədər qohum-əqrəba var, böyükdən-balacaya onların hamısının doğum tarixlərini dəftərə qeyd edib. Hər dəfə kimin ad günü olurmuş mütləq zəng vururmuş.




Hərbiyə gedəndən sonra sürprizləri çox sevərdi. O heç vaxt evə gələndə bizə deməzdi. Səhər dururduq ki, ayaqqabıları qapının ağzındadır. Gedib yerinə baxırdıq ki, yatıb. Soruşurduq, niyə belə edirsən? Gələndə de. Deyirdi, kəşfiyyatçıyam, belə də olmalıdır.

Ən böyük arzusu Zəngəzur yolunun açılması idi. Deyirdi, ana, bu yol açılsa, Füzuliyə çox tez-tez gedib-gələcəksən. Mənim payımı özün gətirəcəksən. Heç kimlə göndərmərsən.

Arzularından biri də altı övladının olması idi. Amma övlad sahibi ola bilmədi. Deyirdi, birinci qızımın adını Lalə qoyacağam. Çünki Lələtəpəyə özüm bayraq sancmışam. Oğlum olsa, Cəbrayıl, Füzuli qoyacağam. İndi də o arzu mənim arzumdur. İnşallah, Fuad oğlumun övladlarına Zülfünün istədiyi adları qoyacağam.

Bir dəfə dedim ki, Zülfü, evlənəndən sonra da məni bu qədər çox istəyəcəksən? Dedi, ana, mən indi səni nə qədər çox istəyirəmsə, onda da istəyəcəyəm. İnanın ki, mənimlə nəfəs alırdı. Çox zarafatcıl idi. Hər sözə zarafatdan ibarət bir qarşılıq tapırdı.

Fikri Fuadın yanında idi. Atası çox tələbkar idi. Hər zaman deyirdi, belə oturun, belə durun, ağır olun. Zarafatla deyirdi, ana, mən qaçdım getdim, Fuad qaldı. Bir də ən böyük arzusu idi Fuadı həkim görmək. Elə hey deyirdi ki, Fuadı Türkiyədə ixtisasını artırmaq üçün oxumağa göndərəcəyəm. Çox istəyirdi, savadlı həkim olsun.

Zülfü Vətəni, milləti, bayrağı o qədər sevirdi ki, canını bu torpağa qurban verdi. Vurulduqdan sonra son sözü o olub ki, bu tezlikdə gözləmirdim. Çünki o daha çox döyüşdə olmaq istəyib. Mənim Zülfüm də digər şəhidlərimiz kimi sevdiyi torpağa qovuşdu. Nə deyim, çox qürurluyam. Amma çox da ağırdır.





## Abbasəli İmamqulu oğlu İsmayılov

*(20.09.1995-22.10.2020)*

### Onu hər zaman Abbas kimi xatırlayacağam

Abbasəli mənim anam, bacım, qolum, qanadım idi. İstəmirdi ki, mən əlimi soyuq suya vurum. Körpəliyindən mənim qayğıma qalırdı. Məktəbdə də o qədər tələbkar idi ki. Nə vaxt dərsi yaxşı keçmirdilər gedib məktəbdə səs salırdı ki, niyə mənə yaxşı dərs keçmədiniz?

O qədər candan yanan idi ki. Evdə hara baxıram, onu görürəm. Çünki evdə nə var hamısını Abbasəli alıb. Hərbi liseydə oxuyanda da aldığı təqaüdü evə verirdi. Deyirdim, ay oğul, bəs orada sənə pul lazım olar. Deyirdi, ana, yox, pul səndə qalsın. Bizə orada hər şey verirlər.

Hərbiyə də getmək öz arzusu idi. Qoymurdum getsin. Deyirdim, qərib adamam məni qoyub getmə. Həkim, müəllim ol, yanımda ol. Ağladı, gözünün suyunu tökdü ki, mən gedəcəyəm. Getdi, oxudu, hamıdan da fərqləndi.

Abbasəli çox mehriban idi. Bir yerim ağrıyanda inan ki, yatmazdı. Gözü qalırdı üzümdə. Bakıda oxuyanda o qədər dərmanlar alıb göndərirdi ki, anamın dizi ağrıyır. Əslində, bizim evdə mələk var imiş. Amma biz bilməmişik.

Maaşını alan kimi bütün ailə üzvlərinə kontur göndərərdi. Hər kəsə 5 manat göndərəndə mənə 10 manat göndərirdi. Deyirdi, ana, qoy səndə hamıdan çox olsun.

Əslində, şəhid olmamışdan qabaq kəndə xəbər yayılır ki, Abbasəli şəhid olub. Bütün qohum-əqrəba, qonşular hamısı bizə yığılmışdı. Hamı qəribə baxışlarla mənə baxırdı. Deyirdim, bunlar mənə niyə belə baxırlar? Elə bu vaxt Abbasəlidən zəng gəldi. Hamı təəccüblü qaldı. Bütün camaat şükür edirdi.



Sonuncu dəfə oktyabrın 18-də danışdıq. Dedi, ana, irəli gedirik. Olar ki, mənə zəng çatmasın, narahat olmayın. Mən 3-4 gün sonra özüm zəng vuracağam. Dörd gündən sonra, 22 oktyabrda balamın şəhid xəbərini aldıq. Amma bu dəfə xəbər doğru idi. 24 oktyabrda balamın nəşini gətirdilər. Mən balama hər zaman Abbas deyirdim. Heç ona Abbasəli demədim. Bundan sonra da onu Abbas kimi xatırlayacağam.

# Türk dünyasının birliyini qorumaq üçün çalışmağımız lazımdır



***Amerika Birləşmiş Ştatlarının Şimali Karolina Universitetinin professoru, Nobel mükafatçısı Əziz Səncər:*** – Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinin dəvəti ilə Azərbaycana gəldim və akademik İsa Həbibbəyli Naxçıvana da dəvət etdi, mən də Naxçıvandayam. Naxçıvanın həm Azərbaycan, həm də Türkiyə üçün çox önəmi var. Türk dünyasına açılan qapıdır. Təbii ki, Azərbaycan hər birimiz üçün önəmlidir, fəqət bu bağlantını etməsi yönündən Naxçıvanın ayrı bir önəmi var. Burada mənə bu qədər diqqət göstəriləcəyini bilməzdim. Allah sizdən razı olsun. Sizləri, azərbaycanlıları, naxçıvanlıları yaxından tanıdım. Hər biriniz qardaşlarımsınız. Sizi də, məmləkəti də çox sevdim.

Türk dünyasının birliyini qorumaq üçün çalışmağımız lazımdır. Həm tələbə, həm də yüksək səviyyədə elm adamları, eləcə də iş adamları ilə birgə çalışmaq lazımdır. Bunu misal göstərmək istəyirəm ki, hər hansı bir siyasi mövzuda bir çox Qərb ölkələri daim bərabər hərəkət edir. Və Türk dünyasında da eyni şeyi etsək, biz də dünya miqyasında qüvvətli olarıq. Bunu təkrar-təkrar demək istəyirəm, diqqət edin, dünyada bir problem olduğu zaman bir sıra ölkələr çox zaman bərabər çalışırlar. Bizim Türk dünyası olaraq eyni şeyi etməyimiz lazımdır. Biz onlar qədər çoxuq, onlar qədər torpağımız var və bərabər çalışmalıyıq. 44 günlük Vətən müharibəsində əldə olunan Zəfər çox yaxşı bir hadisə oldu. Hətta bütün türk dövlətlərinə də nümunə oldu. Çünki Azərbaycanla Türkiyə çox sıx birgə əməkdaşlıq qurublar. Əgər digər türk dövlətləri bu birliyi daha da gücləndirsə, bu xalqlarımızın və dövlətlərimizin gələcək inkişafı üçün çox böyük bir güc və stimul yaradar.

Naxçıvanın isə əsas önəmi odur ki, Türk dünyasını bir-birinə bağlıyır. Biz bu birliyi təmin etməli və qoruyub saxlamalıyıq.



Artıq "Come to Nakhchivan" fotoalbomu dünyaşöhrətli alim, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncərin şəxsi kitabxanasında özünə yer aldı. Əziz bəyin Naxçıvanı gəzmək üçün vaxtı az olsa da, dəyərli alimə albomda doğma diyarımızın əsrarəngiz yerləri haqqında məlumat verdik. Ən çox diqqətini çəkən Naxçıvanımızın "duz çayları" və "duz şəlalələri" oldu.

## Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarına 10 ədəd yeni avtobus verilib



Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarına 10 ədəd yeni avtobus verilib.

Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi texniki bazasının gücləndirilməsi məqsədilə əvəzsiz olaraq 10 ədəd "Hyundai County" markalı avtobus ictimai təhlükəsizliyin daha da etibarlı qorunması üçün şəxsi heyətin xidməti istifadəsinə verilib.

## Naxçıvanda ikinci "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqres keçiriləcək



İyunun 21-22-də Şahbuz rayonunun Batabat yaylağında ikinci "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçiriləcək.

"Şərq qapısı" xəbər verir ki, bunu Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev media nümayəndələri üçün keçirilən mətbuat konfransında bildirib. Qeyd olunub ki, festival-konqresdə Qərbi Azərbaycanda xalqımızın uzun illər ərzində yaratdığı mədəniyyət, mədəni irs, tarixi keçmişimiz təbliğ ediləcək. Həmçinin festival-konqresdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, kulinariya, musiqi və yallı nömrələri, sərgilər, ədəbi-bədii kompozisiyalar təqdim olunacaq.

Elbrus İsayev bildirib ki, festival-konqres çərçivəsində iyunun 21-də, hətta iki gəncin toy məclisi də olacaq. Bu toy Qərbi Azərbaycanın adət-ənənəsinə uyğun şəkildə təşkil olunacaq. Həmçinin festivalda Qərbi Azərbaycan kulinariya sərgisi də təşkil ediləcək.

Qərbi Azərbaycanın 11 mahalını canlandıran çadırlar qurulacaq.

## Cəzaçəkmə müəssisəsində cəzaçəkən məhkum valideynlər ilə uşaqlarının görüşü təşkil edilib



Tədbir Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi"nin qeyd edilməsi, 18 may-18 iyun İnsan hüquqları ayı çərçivəsində və 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil edilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimov bayram münasibətilə uşaqları və onların valideynlərini təbrik edərək Ümummilli Liderimiz Heydər Əliyevin başlatdığı uşaq siyasətini dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın uğurla davam etdirdiyini, dövlətimiz tərəfindən uşaqlara göstərilən diqqət və qayğıdan, azad olunmuş torpaqlarımızda uşaqlarımızı nəzərə alaraq, ilk növbədə, məktəb və uşaq bağçalarının, idman meydançalarının tikilməsindən danışaraq Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin rəhbərliyinin təbriklərini tədbir iştirakçılarına çatdırıb.

Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin "Araz" ansamblı konsert proqramı ilə çıxış edib, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının şən klounları tədbiri canlandıraraq uşaqlar üçün əyləncəli və yaddaqalan ediblər.

Uşaqların yaradıcı potensialını, şəkil çəkmək bacarıqlarını nümayiş etdirmələri üçün onlara rəngli qələmlər və albomlar hədiyyə olunub. Onlar valideynləri ilə birlikdə rəsm çəkərək əyləncəli vaxt keçiriblər. Sonda Penitensiar Xidmətin rəhbərliyi tərəfindən uşaqlara bayram münasibətilə müxtəlif hədiyyələr verilib.

Qadın məhkumlara uzaqda olan uşaqları ilə videogörüntü vasitəsilə əlaqə saxlamaq şəraiti də yaradılıb ki, onlar da öz övladlarının bayramını təbrik etməyə müyəssər olublar. Tədbirdə 12 nəfər məhkum və 14 uşaq iştirak edib.

## Xalq artisti Yalçın Adıgözəlov Naxçıvan Dövlət Universitetində olub



*Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və Musiqi Kollecinin kollektivlərindən ibarət simfonik orkestrlə tanış olan Xalq artisti Yalçın Adıgözəlov "Şərq qapısı" qəzetinə müsahibəsində bildirib ki, yenidən qədim Naxçıvan torpağına gəldiyim üçün çox şadam. Çünki Naxçıvan bizim üçün çox vacib bir bölgədir və 20 ildən çoxdur ki, əlaqələrimiz davam edir.*

Naxçıvanın çox dəyişildiyini bildirən qonaq mədəni əlaqələrlə bağlı yaxşı əməkdaşlıq imkanlarının olduğunu da bildirdi:

– 30 il bundan əvvəl – Naxçıvanın ağır zamanında 1992-1993-cü illərdə biz buraya gəlib-gedirdik. İndi isə şərait tamamilə dəyişib. Əlbəttə ki, bunlar göz qabağındadır. Son 7-8 ildə bizim Naxçıvanla əlaqələrimiz daha sıxdır. Sadəcə, Bakıdan yox, Türkiyədən də iki dəfə böyük simfonik orkestrlə Naxçıvana birbaşa qastrol səfərinə gəlmişik. Naxçıvan şəhərində Heydər Əliyev Sarayında möhtəşəm konsertlərimiz təşkil edilib. Bursa Dövlət Simfonik Orkestri, Dədə Qorqud Kamera Orkestri ilə birgə Möminə xatın türbəsi önündə gözəl konsert proqramımız olub. Məlumdur ki, pandemiya ilə bağlı arada gəlmək imkanımız olmadı. Amma yenidən biz bu gün buradayıq və böyük planlarımız var. Naxçıvanda musiqi həyatını yenidən bərpa etmək, konservatoriyaya dəstək göstərmək üçün, hətta düşünürəm ki, ənənəvi musiqi festivalının təməlini qoymalıyıq. Artıq bütün bölgələrdə, demək olar ki, bu ənənə var. Qəbələ, Şəki, Gəncə, Şuşada var və hətta "Xarıbülbül" də artıq bərpa olunub. Naxçıvanda da bu ənənə mütləq olmalıdır. Bununla bağlı fikirlər irəli sürüldü və mən düşünürəm ki, biz bunu əldə edə biləcəyik. Əsas məsələlərdən biri də budur ki, Bakıdan gələn kollektivlər, sadəcə, gəlib çıxış edib qayıtmasınlar. Naxçıvandakı musiqiçilərlə bir araya gəlsinlər və birgə səhnəni bölüşsünlər. Məsələn, simfonik orkestrlə 40 nəfər Bakıdan gəlirsə, 30 nəfər də Naxçıvandan olsun. Bir yerdə fəaliyyət göstərsək bu, ümumi işə də böyük stimul olar.

Xalq artisti Naxçıvanda keçirilən musiqili tədbirlərdən razı qaldığını da qeyd etdi. Bununla bağlı hazırlıqlarda iştirak edən müsahibimiz bildirdi: – Mən Naxçıvanda Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin caz kollektivinin məşqində iştirak etdim, çox sevindim, eyni zamanda təəccübləndim, gördüm ki, hamısı naxçıvanlı gənclərdir, Bakıdan isə ancaq bir pianoçu, Emil Əfrasiyab iştirak edəcək. Bu çox sevindirici bir haldır ki, artıq Naxçıvanda da ilk dəfə olaraq caz konserti keçirilir. Təbii ki, buna çox sevinirik. Naxçıvan üçün burada əmək verən həmkarlarımıza, müəllimlərə uğurlar arzulayıram. Həqiqətən, bu görülən işlər çox böyük işdir. Bu işə dəstək olmağımız da bizim mənəvi borcumuzdur. Biz hamımız əsgərik. Azərbaycan xalqına, bayrağına, dövlətinə, mədəniyyətinə qulluq edirik. Bundan heç şübhəmiz yoxdur ki, ölkəmiz bundan sonra daha da inkişaf edəcək. Burada isə sizinlə sağollaşmıram, bir daha görüşmək ümidi ilə ayrılır və təşəkkür edirəm.

*Yaşıl Dünya Naminə Həmrəylik İli*

# Bahar təravətli, zəhmət ətirli yaşıl dünyamız...



Sehrinə daldıqca dalırsan müəllifi təbiətlə insan zəhməti olan həmrəylikdən yoğrulan “Bahar təravətli, zəhmət ətirli yaşıl dünyamız” adlı möhtəşəm sənət əsərinin. Hər naxışı bir-birini müfəssəl şəkildə tamamlayan canlı, həyati əsər baxdıqca baxılır, doymaq olmur fiziki, əqli sağlamlığı gücləndirən, mənəvi dünyanı paklaşdıran saflığından, lətifliyindən, çıxmaq olmur bir-birinə sarılaraq qol-boyun olan al-əlvan rənglərin ecazkar harmoniyasının təsirindən, dərin təəssürat, silinməz izlər buraxır yaddaşlarda. Oba-oba, qarış-qarış, oymaq-oymaq gəzərək zövq almağa çalışın, seyrinə, sehrinə tələsin hər daşından, qayasından, yamacından tariximin ululuq sədası, əcdadlarımın nəfəsi duyulan Oğuz yurdunun sinəsində bərq vuran bahar təravətli, zəhmət ətirli, zövqoxşayan sənət nümunəsinin...

“Yaşıl Dünya Naminə Həmrəylik İli”nin bu aylarında yola çıxın. Bütün kənd və şəhərlərimizi bir arada canlandıran bu canlı sənət əsərinin ilkin çalarlarının ecazkarlığını dolu-dolu, içdən yaşamaq, o əsərin bir parçasına çevrilmək, həyatdan, yaradılışdan zövq almaq üçün yubanmayın, tələsin rəsmin tamaşasına. Uşaqlıq çağlarınızın yaz aylarına xas şən-şıltaq keçən dövrünə səyahət etmək üçün buyurun günü-gündən müasirləşən kəndlərimizə, keçdikcə arzular, istəklər dolaşan abad küçələrdən, döngələrdən qeyri-iradi boylanacaqsınız illər arxasına. Xəyalınızın dünənə açılan pəncərəsindən bir anda eşidiləcək munis duyğulu səslər, xatirənizdə canlanacaq ötənlər-keçənlər, unudulmaz, yaddançıxmaz anlar. Əllərində çörək dəstələri evə tələsən xanımlar görən kimi hafizənizdə canlanacaq ana-nənələrin təndir salıb xəmir açmasını, çörək yapmasını, pendir dürməyi ilə yemək üçün məhəllə uşaqları ilə bağınızdan oğrun-oğrun pomidor qoparmağınız, həmyaşıdlarınızla oynadığınız, sağlam həyat, düşüncə, rəqabət aşılayan oyunlar: “Qovalaqaç”, “Gizlənqac”, “Qəcəmədaş”, “Bənövşə”, “Ocaq yandı” və daha nələr, nələr...

Günəşin zərrin şəfəqləri canınızı isitdikcə daha da isinəcək xatirələr, bu əsərin hər naxışı var-gəl etdirəcək sizi keçmişlə bu gün arasındakı nostalji duyğularla köklənən, bahar təravətli gül-çiçəyin bihuşedici ətri ilə bəzənən mənəviyyat körpüsündə. Bugünkü firavanlığa, büsatlığa rəğbət bəsləyib ürəkdən alqışlayacaq, giley-güzar edəcəksiniz xalq uşaq oyunlarının unudulmasından, indiki balacaların mənəviyyat dünyasının mənasız vərdişlərin əsiri olmasından. Ürəkaçan mənzərələr görmək naminə qonaq olacaqsınız həyətlərə. Qulaq asacaqsınız torpağın bağrına sığal çəkərək onu qış yuxusundan oyadan insanların, bir çiçəkdən o birinə uçuşan arıların zəhmət nəğməsinə, yaz tarla işlərinə başı qarışan zəhmətkeşlərin söhbətindən hasil olacaq bu mükəmməl sənət əsərinin bəzi incə məqamları: həyətlərdə baş qaldıran nəfis göyərtilərə, həyata kövrək addımlarla qədəm basan fidanlara, qol-budağı talvar olunan üzüm kollarına göstərilən qayğı, bağçılıqda vacib amil sayılan, həssas yönləri ilə seçilən bahar calağı, torpağı ətə-qana gətirən aqrotexniki qulluq qaydaları...

Üz tutun bir-birindən bənzərsiz mənzərələri ilə könülləri riqqətə gətirən, şairlərin, yazıçıların ilham mənbəyinə çevrilən, sinəsini lalələr, süsənlər, nərgizlər bəzəyən Xalxal, Payız, Tillək, Xəlil, Cəlil meşələrinə, qalxın mərcan gözlü Batabat yaylağına, salamlayın turizmin gözü sayılan Ağbulağı, qulaq asın Arpaçayın zümzüməsinə. Hər bir təbiət guşəsi fərqli aurada, özünəxas naxışları, qonaqpərvərlik üsulu ilə qarşılayaraq mehman edəcək sizi öz isti qoynuna, canınıza şuxluq gətirən ehmalca əsən meh, ağac yarpaqlarında bərq vuran Günəş şüaları, yeridikcə ayaqlarınız altında sızıldayan yenicə cücərmiş otlar, quşların cəh-cəhi yayılacaq ruhunuza heç zaman bitməsini istəmədiyiniz, təkrar-təkrar dinləməkdən yorulmadığınız həzin musiqi kimi. Əgər yaradıcı insansınızsa mütləq ya yeni şeirin, rəsm əsərinin, musiqinin, ya da essenin, düşüncə yazılarının yaranmasına vəsilə olacaq bu doyumsuz mənzərələr. Yaxınlıqda qaynayan bulağın gözyaşı kimi dumduru suyundan götürüb açacaqsınız gözəl Naxçıvan nemətləri ilə bəzənən yaz süfrəsini. Ruhunuzu öz kəraməti ilə şuxlandıran təbiət qeyri-iradi sıralayacaq yaddaşınızda Xalq şairi Məmməd Arazın misralarını:

*Sinəmdə o yerin dağ havasıdır,*
*Qaynar bulaqları qaynar qanımda.*
*Mənim ürəyimin bir parçasıdır,*
*Doğma Şahbuzum da, Naxçıvanım da.*

Bol bəhrəli Şərur, Babək ellərindən, dağlarında min bir nemət bitirən Şahbuzdan, qocaman çinarlar məkanı Ordubaddan, inkişaf salnaməsi ilə düşmənə gözdağı olan Sədərəkdən, gənclik işığı kimi parlayan Kəngərlidən, Şərqə açılan qapı Culfadan sonra bahar təravətli, zəhmət ətirli, zövqoxşayan sənət əsərinin ana xətti – bayramlar şəhəri Naxçıvanı da gəzin mütləq, çıxın pişvazına başdan-başa hər prospektin, küçənin. Mədəni-kütləvi tədbirlərin sevimli ünvanına, rəssamların, incəsənət adamlarının, yaradıcı şəxslərin ilham ocağına çevrilən, yaşıl xalıya bürünən Əcəmi seyrəngahından daha çox duyacaqsınız baharın təntənəsini, təbiətin səsini. Salın yolunuzu hər yaş dövründən olan insanları köksünə mehman eləyən xüsusi landşaft dizaynına malik, əsrlərin sərt sınaqlarına sinə gərən, köksündə illərin həsrətini, hicranını, sevincini, kədərini gizlədən qocaman çinar ağaclarının çətir tutduğu park və xiyabanlara. Ahıl çağındasınızsa həmyaşıdlarınızla rahat oturacaqlarda əyləşib olanlardan – keçənlərdən, həyatlarınızın ayrı-ayrı dönəmlərində baş verən hadisələrdən söhbət açın, gəncsinizsə doyunca gəzin füsunkar təbiət ərməğanlarının qoynunda, dəyərini bilin bir daha ələ düşməyəcək belə mənalı günlərin, xatirələşdirin hər anınızı, şəkillər çəkdirin gözəl günlərinizdən yadigar qalsın deyə. Burada da, heç şübhəsiz, qaçılmazdır nostalji hisslərin caynağına düşməyiniz, keçmişdə yaşananlar yenə pərvaz edəcək düşüncənizdə ağacların əhatəsində qaçdı-tutdu oynayan şən-şaqraq gülüşlü, məsum duyğulu uşaqların şıltaqlığı ilə. Bu mənzərələri gördükcə insan övladının təbiətə, yaşıllıqlara sıx bağlılığının bir daha şahidi olub haqq qazandıracaqsınız mütəxəssislərin, psixoloqların yaşıl rəngin insana sakitləşdirici təsir göstərdiyi, gözlərə müsbət enerji bəxş etdiyi, ətraf mühitin yaşamaq-yaratmaq ruhu aşıladığı, təbiət sağlamlığın rəhnidir fikirlərinə. Beləcə, yaşıl dünya naminə həmrəylik göstərib sağlamlığınızın keşiyində duran, ana təbiəti qoruyanlara, yaşadanlara daha da çoxalacaq rəğbətiniz. Artacaq yaşıllıqlara cidd-cəhdlə qulluq göstərən insanlara minnətdarlıq hissiniz, dərindən dərk edəcəksiniz bu xeyirxah missiyanı yerinə yetirmək üçün mənəvi məsuliyyətinizi...

Oğuz yurdunun köksündə xalı kimi toxunan insan zəhməti ilə təbiətin harmoniyasından yaranan “Bahar təravətli, zəhmət ətirli yaşıl dünyamız” əsərini seyr etdikdə Xalq şairi Bəxtiyar Vahabzadənin “Dərin qatlara işıq” kitabındakı ana təbiətin mühafizəsi ilə bağlı böyük ictimai məzmun kəsb edən fikirlərinin həqiqətinə bir daha varacaqsınız: “Həyatda hər cür çatışmazlıq nizamın, tarazlığın pozulmasından doğur. İstər təbiət, istərsə də cəmiyyətdəki bütün nizamlılıq və mütənasib inkişaf adamların fəal həyat mövqeyindən asılıdır. Xalq demişkən, qayda-qanun olan yerdə xeyir-bərəkət üzülməz. Bərəkətin tükənməsi halı insanların yalnız və yalnız ətraf mühitə laqeydliyindən, torpağa, suya, bir sözlə, flora və faunaya xor baxmasından irəli gəlir. Təbiəti müqəddəs bilmək, onu ana hesab etmək əsrlər boyu insanları zaman-zaman düşündürmüşdür. Bu hissə ehkam kimi yanaşmaq olmaz”. Elə bu düşüncələrlə qəlbinizdə dünyamızı yaşıllaşdırmaq həvəsi daha da şövqlənəcək, bu mənəvi zövqü nəsib edənləri alqışlayıb, dilə gətirəcəksiniz ən pak, ülvi istəklərinizi: “Yaşıl Dünya Naminə Həmrəylik İli”ndə yurdumuzun köksündə daha da çox parlayan bu sənət əsərinin çalarlarının hər ötən il daha zəngin, elimizin-obamızın bar-bərəkətinin bol, əmin-amanlığın, firavanlığın, nizamın daim belə bərqərar olması, ömrümüzün bahar rayihəsinə bürünməsi, arzularımızın, ümidlərimizin həmişəbahar gülü kimi parlaması diləyi ilə...

**Nail ƏSGƏROV**



## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 9 iyul 2024-cü il tarixdə hərraca çıxarılacaq nəqliyyat vasitələrinin siyahısı

| S/s | Balanssaxlayıcı müəssisənin adı | Əlaqəli şəxs | Nəqliyyat vasitəsinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | Start qiyməti (manatla) | 10 faiz beh (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Prokurorluğu | Qurbanov Ağamir Feyzulla oğlu (050) 343 37 44 | Chevrolet Niva | 85 AA 299 | 2009 | 4200,0 | 420,0 |
| 2. | Naxçıvan Muxtar Respublikası Prokurorluğu | Qurbanov Ağamir Feyzulla oğlu (050) 343 37 44 | Vaz 21213 | 85 AA 280 | 2002 | 2500,0 | 250,0 |
| 3. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Naz Lifan LF 7160 520 | 85 AA 786 | 2010 | 1800,0 | 180,0 |
| 4. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Hyundai Accent | 85 AA 534 | 2001 | 2000,0 | 200,0 |
| 5. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Ford Focus | 85 AA 103 | 2003 | 2000,0 | 200,0 |
| 6. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21213 | 85 AA 518 | 2002 | 1000,0 | 100,0 |
| 7. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21070 | 85 AA 309 | 2005 | 1500,0 | 150,0 |
| 8. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21213 | 85 AA 538 | 1999 | 1000,0 | 100,0 |
| 9. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21213 | 85 AA 539 | 1999 | 1000,0 | 100,0 |
| 10. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21074 | 85 AA 272 | 2004 | 1500,0 | 150,0 |
| 11. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi | Kərimov Nihad Əsəd oğlu (060) 568 36 44 | Vaz 21074 | 85 AA 273 | 2004 | 1500,0 | 150,0 |

**Qeyd:**

● Nəqliyyat vasitələri üzrə cərimə və məhdudiyyətlər ilə bağlı məsələlərin həlli balanssaxlayıcı təşkilatlar tərəfindən təmin olunmalıdır.

● Məlumatın dərc olunduğu gündən hərracda iştirak etmək istəyən şəxslərə satışa çıxarılan nəqliyyat vasitəsi ilə qabaqcadan tanış olmaq imkanı balanssaxlayıcı təşkilat tərəfindən yaradılır.

● Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və nəqliyyat vasitəsinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

● Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən (Nəcməddin Naxçıvani 8-ci küçə,1/5A) ünvanında hərracın keçirilməsinə ən gec 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır.

● Hərracda iştirak etmək üçün hərracın keçirilməsinə ən azı 3 bank günü qalanadək aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd (Hüquqi şəxslər üçün:notarial qaydada təsdiq olunmuş qeydiyyat şəhadətnaməsi, nizamnaməsi və VÖEN)

2. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd (10 faiz məbləğində beh AZ21NABZ12360100000000005944 nömrəli hesablaşma hesabına ödənilməlidir).

● Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

● Hərrac 9 iyul tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

● Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin @nmr_herracmerkezi “Instagram” hesabından və yaxud *auksion.nmr.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz. Əlaqə telefonu: (036) 545-01-38; (060) 265-60-45

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 11 iyul 2024-cü il tarixdə hərraca çıxarılacaq özəlləşdirmə obyektləri barədə məlumat

| S/s | Obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz | Obyektin satış qiyməti (manatla) | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | Nüsnüs kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 18,5 kv.m olan gözəllik salonu | Ordubad rayonu, Nüsnüs kəndi | 2021 | 5800,0 | 5800,0 | 580,0 |
| 2. | Nüsnüs kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 18,5 kv.m olan bərbərxana | Ordubad rayonu, Nüsnüs kəndi | 2021 | 5800,0 | 5800,0 | 580,0 |
| 3. | Nüsnüs kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 10,9 kv.m olan dərzi sexi | Ordubad rayonu, Nüsnüs kəndi | 2021 | 3400,0 | 3400,0 | 340,0 |
| 4. | Arbatan kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 10,07 kv.m olan dərzi sexi | Şərur rayonu, Arbatan kəndi | 2016 | 3900,0 | 3900,0 | 390,0 |
| 5. | Qorçulu kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 9,75 kv.m olan bərbərxana | Şərur rayonu, Qorçulu kəndi | 2014 | 3050,0 | 3050,0 | 305,0 |
| 6. | Qorçulu kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 11,1 kv.m olan gözəllik salonu | Şərur rayonu, Qorçulu kəndi | 2014 | 3500,0 | 3500,0 | 350,0 |
| 7. | İbadulla kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 10,73 kv.m olan gözəllik salonu | Şərur rayonu, İbadulla kəndi | 2018 | 3750,0 | 3750,0 | 375,0 |
| 8. | Sərxanlı kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 13,3 kv.m olan ət mağazası | Şərur rayonu, Sərxanlı kəndi | 2013 | 3650,0 | 3650,0 | 365,0 |
| 9. | Zeyvə kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 17,6 kv.m olan gözəllik salonu | Şərur rayonu, Zeyvə kəndi | 2010 | 6200,0 | 6200,0 | 620,0 |
| 10. | Zeyvə kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 11,8 kv.m olan dərzi sexi | Şərur rayonu, Zeyvə kəndi | 2010 | 4200,0 | 4200,0 | 420,0 |
| 11. | Zeyvə kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 10,54 kv.m olan bərbərxana | Şərur rayonu, Zeyvə kəndi | 2010 | 3700,0 | 3700,0 | 370,0 |
| 12. | Zeyvə kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 19,52 kv.m olan ət mağazası | Şərur rayonu, Zeyvə kəndi | 2010 | 6900,0 | 6900,0 | 690,0 |
| 13. | Şəhriyar kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 18,5 kv.m olan bərbərxana | Şərur rayonu, Şəhriyar kəndi | 2021 | 7000,0 | 7000,0 | 700,0 |

**Qeyd:**

● Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və özəlləşdirmə obyektinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

● Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən (Nəcməddin Naxçıvani 8-ci küçə,1/5A) ünvanında hərracın keçirilməsinə ən gec 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır:

● Hərracda iştirak etmək istəyən şəxslər sifarişə aşağıdakı sənədləri əlavə edirlər:

1. Satıcı tərəfindən müəyyən edilmiş hesaba (AZ21NABZ12360100000000005944) behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;

2. Hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;

3. Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;

4. Hərraclarda iştirak etmək üçün sifariş hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə o özünün sifarişçisi adından hərəkət etmək hüququnu təsdiq edən sənəd təqdim etməlidir.

● Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

● Hərrac 11 iyul tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

● Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin @nmr_herracmerkezi “Instagram” hesabından və yaxud *auksion.nmr.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz. Əlaqə telefonu: (036) 545-01-38; (060) 265-60-45

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti əlavə (təkrar) ali təhsilin qaydalarına uyğun olaraq 2024-2025-ci tədris ili üzrə aşağıdakı ixtisaslara əlavə (təkrar) ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

| Sıra № | İxtisasın şifri | İxtisasın adı | Təhsil alanların illik təhsil haqqı məbləği (manatla) |
|---|---|---|---|
| | | | Qiyabi |
| 1. | 050212 | Hüquqşünaslıq | 5000 |
| 2. | 050214 | Tarix | 2000 |
| 3. | 050215 | Tərcümə (ingilis-Azərbaycan dilləri) | 2000 |
| 4. | 050405 | İqtisadiyyat | 2500 |
| 5. | 050409 | Mühasibat | 2500 |
| 6. | 050616 | İnformasiya texnologiyaları | 2000 |
| 7. | 050211 | Psixologiya | 1500 |
| 8. | 050309 | Musiqişünaslıq | 2000 |

Əlavə (təkrar) ali təhsil almaq istəyən şəxslər üçün sənədlərin qəbulu 6 iyun-31 avqust 2024-cü il tarixlərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin *www.portal.edu.az* platformasından qeydiyyatdan keçərək müraciətlərini edə bilərlər. Namizədlər bunun üçün əsas səhifəyə daxil olaraq “Qeydiyyat” düyməsini sıxıb “Əlavə təhsilə elektron sənəd qəbulu” xidmətini seçib, “Müraciət et” düyməsinə sıxmaqla tələb olunan məlumatları daxil etməlidir.

Təkrar ali təhsilə qəbul test və müsahibə əsasında aparılır. Müsahibəni uğurla keçən namizədlər təkrar ali təhsil almaq hüququ qazanır. Təkrar ali təhsil almaq hüququ qazanmış şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
*- 3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
*- sağlamlıq haqqında arayış;*
*- əmək kitabçasından çıxarış;*
*- şəxsiyyət vəsiqəsinin surəti;*

Müsabiqənin keçiriləcəyi tarix və yer şəxsi kabinetlərə göndəriləcək. Təkrar ali təhsil yalnız ödənişli formada bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Təhsilini müvəffəqiyyətlə başa vuranlara müvafiq ixtisas üzrə bakalavr peşə-ixtisas dərəcəsi və ali təhsil haqqında dövlət nümunəli bakalavr diplomu verilir.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina.***

### *İtmişdir*

A-014955 nömrəli torpaq sahəsinin planı və ölçüsü və 105013000887 reyestr nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Gülməmmədova Fəridə Nəsrulla qızının adına olan JN-1043$^{A}$ nömrəli, 10209018 kodlu torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə, torpaq sahəsinin plan ölçüsü, həyətyanı sahənin qaiməsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Səfərov Mədət Hüseyn oğlunun adına olan JN-127$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Məmmədova Şahnaz Əkrəm qızının adına olan avtomobilin 72 BC 773 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu Stansiya Daşarx kəndində yaşamış Mustafayev Natiq Mustafa oğlunun adına olan JN-418$^{A}$ və JN-418$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-251 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Qurbanov İsgəndər Hüseyn oğlunun adına olan JN-116$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Yuxarı Əndəmic kəndində yaşamış Məmmədov Səttar Səyyad oğlunun adına verilmiş JN-299$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Bülbül Quliyeva
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 163